İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu əkbər" deməklə) təzim və şükür edəsiniz."

*(Qurani-Kərim, əl-Bəqərə, 185)*

## "Rəy": Azərbaycan əhalisi ölkə Prezidentinə etibar edir

"Rəy" Monitorinq Mərkəzinin iyunun əvvəlində ölkə üzrə keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, Azərbaycan əhalisinin əksəriyyəti ölkə Prezidenti İlham Əliyevə etibar edir. Cavablar göstərir ki, prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, səsvermə məntəqələrinə yollanacaq respondentlərin 87,3 faizi öz səsini hazırkı dövlət başçısı İlham Əliyevə verərdi.

Sorğuda iştirak edənlərin 83 faizə yaxını "İlham Əliyev sizin kimi insanların maraqlarına cavab verirmi?" sualına "bəli, cavab verir" (tam və ya qismən), 5 faizi "xeyr, cavab vermir", 4 faizi isə "əsasən cavab vermir" cavabını verib. Qalan 8 faiz bu sualı cavablandırmaqda çətinlik çəkib.

Yaşayış yeri üzrə üzbəüz müsahibə yolu ilə keçirilən sorğuda yaşı 18 və yuxarı olan 1500 nəfər iştirak edib. Nisbi xəta 2,7 faizdir.


www.scwra.gov.az

Dinimiz milli-mənəvi sərvətimizdir.

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (287) / İYUN 2015-ci il


# Prezident İlham Əliyev: Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir



İyunun 22-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib.

**Görüş iştirakçılarını salamlayan Prezident İlham Əliyev deyib:**

- Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram.

Bizim görüşlərimiz Ramazan ayında ənənəvi xarakter daşıyır və sizi görməyimə çox şadam.

Xahiş edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələr ilə Azərbaycanın çox sıx əlaqələri var. Biz ikitərəfli formatda gözəl əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Biz maraqlıyıq ki, müsəlman ölkələri ilə siyasi, iqtisadi əlaqələrimiz, mədəniyyət sahəsində əlaqələr daha da inkişaf etsin. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bizim əməkdaşlığımız çox yüksək səviyyədədir.

Son vaxtlar İslam Əməkdaşlıq Təşkilatı ilə bizim əlaqələrimiz daha da inkişaf edir. Aprel və may aylarında Ciddədə və Bakıda təşkilatın baş katibi ilə mənim görüşlərim olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın uğurlu inkişafını qeyd edir, Azərbaycanda gedən işlərə çox yüksək qiymət verir. Biz də təşkilatın fəal üzvü kimi çalışırıq ki, ölkələr arasındakı həmrəyliyi daha da gücləndirək. Ümumiyyətlə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, İslam həmrəyliyi daha da möhkəmlənməlidir və müsəlman ölkələri bir-birinə daha da böyük dərəcədə dəstək verməlidir. Xüsusilə ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha da böyük ehtiyac var. Biz bu dəstəyi görürük, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. Həm BMT-də müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim mövqeyimizi dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul etmişdir. Bu dəstəyə görə təşkilatın üzvü olan ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması region üçün ən böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, uzun illərdir ki, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən pozulub, bir milyondan çox azərbaycanlı öz doğma torpağından qaçqın və köçkün vəziyyətinə düşmüşdür, xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir. İşğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb, yerlə-yeksan edilib. Erməni vəhşiləri məscidlərimizi də dağıdıb, yerlə-yeksan ediblər. Amma biz o torpaqlara qayıdandan sonra bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Ermənistan isə beynəlxalq hüquq normalarını kobudcasına pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq, ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

səh. 2

## Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri

səh. 3

## Qeyri-islam dini icmalarına maliyyə vəsaiti ayrılıb

səh. 5

## Dövlət Komitəsində Ramazan ayı ilə bağlı müşavirə keçirilib

səh. 7

## Ramazan bayramı- Yaradanın şəfqət ehsanı

səh. 14

# Prezident İlham Əliyev: Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir

(əvvəli 1-ci səhifədə)

Keçən bayramdan ötən dövr ərzində ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Bakıda ölkəmizin ən böyük məscidi - Heydər məscidi tikilib istifadəyə verilmişdir. Azərbaycan dövləti öz tarixi keçmişinə, tarixi abidələrinə çox böyük diqqətlə yanaşır. Bizim bütün tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunub, bərpa edilib. Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi Azərbaycanda yerləşir, 743-cü ildə tikilmişdir. O, bir memarlıq əsəridir. Dünyanın ən yeni məscidlərindən biri olan Heydər məscidi 2014-cü ildə Bakıda tikilmişdir. Bu məscid də gözəl memarlığa malik olan bir sənət əsəridir. Yəni, bu, bir daha ölkəmizin öz keçmişinə, xalqımızın öz dininə olan hörmətini əks etdirir.

Biz bundan sonra da çalışacağıq ki, müsəlman ölkələri arasındakı həmrəyliyi gücləndirək. İki ildən sonra Bakıda İslam Həmrəylik Oyunları keçiriləcək. Əminəm ki, bu Oyunlar bütün müsəlman ölkələrini biri-biri ilə daha da sıx birləşdirəcək.

Hörmətli səfirlər, sizi bir daha salamlayır və sizə fəaliyyətinizdə uğurlar arzu edirəm.

* * *

**İraqın Azərbaycandakı səfiri Heydər Şiyə Qubeyşi əl-Barrak** çıxış edərək deyib:

- Cənab Prezident, bu gün bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu, bizim üçün artıq ənənəyə çevrilib. Bu görüş bizi çox sevindirir. İlk növbədə, icazə verin, həmkarlarım - İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin səfirləri adından Sizə müqəddəs Ramazan ayı münasibətilə təbriklərimi çatdırım.

Ulu Tanrıdan bu ayın Sizə, Azərbaycana və bütün İslam dünyası ölkələrinə sülh, firavanlıq və inkişaf gətirməsi üçün dualar edirik. Həmçinin fürsətdən istifadə edərək Sizi birinci Avropa Oyunları və iki ildən sonra keçiriləcək İslam Həmrəylik Oyunları münasibətilə təbrik etmək istərdim.

Cənab Prezident, icazə verin, qeyd edim ki, bu möhtəşəm Oyunlara ev sahibliyi etməklə Azərbaycan dünyaya özünü sülhsevər ölkə kimi təqdim etdi.

Cənab Prezident, bu şərəfətli ayda biz müqəddəs Ramazanın mənəvi dəyərlərini nümayiş etdiririk. Sizin də artıq qeyd etdiyiniz kimi, biz İslam həmrəyliyinə və birliyinə töhfələr veririk. Çünki bizim – İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin çox böyük yeraltı, yerüstü təbii sərvətləri və əhalisi var. Təbii ki, bu müqəddəs Ramazan ayında biz əsas məsələmiz olan Fələstinin timsalında İslam faciəsini xatırlayırıq. Ölkələr arasında birliyin olmaması səbəbindən Fələstin hələ də işğaldan əziyyət çəkir. Bu müqəddəs ayda biz, həmçinin Dağlıq Qarabağ faciəsini, Azərbaycanın bu mühüm hissəsinin onun əlindən necə alındığını xatırlayırıq. Sizin də qeyd etdiyiniz kimi, bu, bütün regionda sülh və təhlükəsizlik üçün real təhdidə çevrilib. Bu ayda biz, həmçinin əksər müsəlman ölkələrində əziyyət çəkən qaçqın və məcburi köçkünləri xatırlayırıq. Bu ayda biz Tanrıya onların probleminin həlli və evlərinə qayıtmaları üçün dualar edirik.



Cənab Prezident, bu müqəddəs ayda biz, həmçinin İƏT səfirləri olaraq Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda sülh yolu ilə həll edilməsini, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını və məcburi köçkünlərin evlərinə qayıtmalarını və bununla bağlı müvafiq beynəlxalq qətnamələrin yerinə yetirilməsini istəyirik.

Cənab Prezident, mən və həmkarlarım Sizinlə eyni hissləri paylaşırıq. Avropa Oyunlarının möhtəşəm açılışı bizi heyrətləndirdi. Oyunlar hərtərəfli və mükəmməl təşkil olunub. Biz Azərbaycanın 2017-ci ildə İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməsini səbirsizliklə gözləyirik. Biz İƏT-in üzvləri kimi bu Oyunlarda iştirak etmək həvəsindəyik. Bu Oyunlara ev sahibliyi etməklə Azərbaycan bir daha özünü Şərq ilə Qərb arasında körpü kimi təqdim etdi. Azərbaycan, həmçinin özünü Şərq ilə Qərbin sevgi və sülh körpüsü, tolerantlıq, başqalarını qəbul etmək, terrorizmlə və terrorçularla mübarizə nümunəsi kimi təqdim etdi. İnşallah, hər haqq-ədalət Azərbaycanın tərəfində olacaq.

Cənab Prezident, bu müqəddəs ayda Azərbaycan xalqına və hökumətinə səmimi salamlarımızı və hörmətimizi çatdırmaq istərdik. Təşəkkür edirik.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 14 ili tamam oldu



Azərbaycanda cəmiyyət həyatının müxtəlif sahələrindəki münasibətlərin ən yüksək səviyyədə tənzimlənməsi üçün mükəmməl idarəçilik sisteminin qurulması Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın XX əsrin əvvəllərində yenidən müstəqilliyini bərpa etməsindən sonra xalqımızın milli-mənəvi dəyərlərinə yenidən qayıdışı, unudulmaqda olan milli-mənəvi dəyərlərin yenidən dirçəldilməsi də məhz Ulu Öndərin yorulmaz fəaliyyətinin nəticəsi olmuşdur. Hələ sovetlər dönəmində milli-mənəvi, o cümlədən dini dəyərlərimizin qorunmasını müxtəlif mexanizmlərlə gerçəkləşdirən Ümummilli Lider Heydər Əliyevin müstəqillik dönəmində bu istiqamətdə yürütdüyü siyasət daha genişspektrli xarakterə malik olmuşdur. Ulu Öndər milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması ilə yanaşı, bu dəyərlərin ayrılmaz tərkib hissəsi olan tolerantlıq və humanizm ənənələrinin davam etdirilməsinə xüsusi diqqət yetirmişdir.

Məhz müstəqil Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması məqsədi ilə Ümummilli Lider Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Yarandığı dövrdən bəri Komitənin qarşısında böyük vəzifələr qoyulmuşdur. Dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini qurumların Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının aparılması, dini qurumlara lazımi yardımın göstərilməsi, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşmanın və bir-birinə dözüm və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması üçün Dövlət Komitəsinin fəaliyyəti ildən-ilə gücləndirilmişdir.

Bu sahədə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan strateji xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Bu gün Azərbaycanda müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yüksək səviyyədə şəraitin yaradılması, dini məbədlərin – məscidlərin, kilsələrin, sinaqoqların dövlət vəsaiti hesabına tikilərək dindarların istifadəsinə verilməsi, dini maarifçilik işinin gücləndirilməsi məqsədi ilə dini icmalara maliyyə vəsaitlərinin ayrılması, Azərbaycanın tolerantlıq modelinin dünyaya təbliği məhz cənab Prezidentin bu sahəyə münasibətinin göstəricisidir. Bu mənada, Dövlət Komitəsi də diqqətdən kənarda qalmamış, son illərdə Dövlət Komitəsinin səlahiyyətləri artırılmış, bir çox istiqamətlərdə yeni səlahiyyətlər verilmişdir.

Artıq 14 ildir ki, fəaliyyət göstərən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu gün bu diqqət və qayğıdan bəhrələnərək işini günün tələbləri səviyyəsində qurmaqla, ölkəmizdə dini konfessiyalar arası münasibətləri ən yüksək səviyyədə tənzimləməkdədir. Dövlət Komitəsi bu gün nəinki bu sahədəki münasibətləri tənzimləyir, həmçinin, dini icmaların fəaliyyətinin yüksək səviyyədə təşkilinə çalışır.

Bu gün Dövlət Komitəsi təkcə ölkəmizdə deyil, ölkəmizdən kənarda da tolerantlıq və humanizm ənənələrinin təbliği üçün müxtəlif konfrans və simpoziumlar təşkil edir. Son dövrlər Dövlət Komitəsinin bu sahədəki fəaliyyəti daha da güclənmiş, milli-mənəvi dəyərlərin təbliği, qeyri-ənənəvi dini cərəyanlara və radikal qruplara qarşı ideoloji səddin yaradılması prioritetə çevrilmişdir.

Nəticə olaraq deyə bilərik ki, bu gün bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də ölkəmizdə formalaşdırılmış model özünəməxsusluğu ilə seçilir və bu mexanizm ən mükəmməl formada fəaliyyət göstərməkdədir. Məhz bunun nəticəsidir ki, bu gün ölkəmizdə bütün dini konfessiyaların nümayəndələri birlik, bərabərlik, qardaşlıq şəraitində yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə ifadə etsək: "Bugünkü Azərbaycanı dini dözümlülük, tolerantlıq mühiti səciyyələndirir".

*Tarixi prosesdə formalaşan etnik-mədəni müxtəlifliklər (çoxmədəniyyətlilik, multikulturalizm) və onların əsasını təşkil edən etnik-mədəni dəyərlər xalqların və dövlətlərin inkişafında mühüm rol oynayır. Lakin bu müxtəlifliklər dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün tənzimlənmədikdə, ölkədə uyğun multikultural siyasət formalaşmadıqda ciddi problemlər, hətta münaqişələr baş verir. Buna görə də bu müxtəlifliklərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük əhəmiyyət kəsb edir.*

# Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri



Təəssüf ki, multikulturalizmin özü də müxtəlif ölkələrdə ondan gözlənən eyni müsbət nəticəni vermədi. Hansı ölkədə bu, hansı nəticəni verdi - belə bir suala cavab axtarmazdan əvvəl biz müəyyənləşdirməliyik ki, tarixən ölkənin etnik və dini müxtəlifliyinin mahiyyətində nə durur?! Bəzi ölkələr tarixən hər hansı müxtəlifliklərdən yan keçib digər mədəniyyətlərlə təmas nöqtəsinə monoetnik bir birlik kimi gəlib çıxmışdır. Bəzi ölkələrdə isə müxtəliflik ilkin xarakterli olmuşdur. Birinci halda gəlmə multikultural dəyərlər artıq dəyərləri formalaşmış ölkədə özünə asanlıqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alınır. Onun üçün də bəzi Avropa ölkələrində, məsələn, Böyük Britaniyada, Fransada, Almaniyada bu modelin iflasa uğramasının obyektiv səbəbləri yox deyil.

Bəzi ölkələrdə isə müxtəliflik ilkin çağdan başlayır və müxtəlif xalqlar ən qədim zamanlardan etibarən bir-birini formalaşdıra-formalaşdıra müasir dövrə qədəm qoyurlar. "İlkin" müxtəliflik və "sonrakı" müxtəlifliyi bir-birindən ayırmasaq, bugünkü dünyada hansısa ölkədə multikulturalizmin iflasının, hansında isə təntənəsinin sirrini öyrənə bilmərik.

**Azərbaycanda normal multikultural əhvalın olması - müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehribançılıq şəraitində yaşaması yenə də tarixin qədim dövrlərindən qidalanır. "İlkin" müxtəliflik Azərbaycan ərazisində özünü göstərən nadir xüsusiyyətlərdəndir və bu hal "sonrakı" müxtəliflikdən indicə qeyd etdiyim kimi kəskin şəkildə fərqlənir. Məhz "ilkin" müxtəliflik bu gün Azərbaycan ərazisində özünü qoruyub saxlamış sistemli münasibət modeli formalaşdırmışdır. Nəticədə isə əsrlərdən bəri şair, yazıçı və alimlərin bədii ədəbiyyatda, elmi traktatlarda özünü göstərən müxtəlifliyə hüsn-rəğbəti və loyallığı məhz Azərbaycanda, özü də müstəqillik dövründə yeni bir siyasi ahəng kəsb edə bildi.**

Elə ona görə də təəccüblü deyil ki, bir sıra Qərb ölkələrində, elə həmin Fransada, İngiltərədə, Almaniyada multikulturalizmin siyasi xətt kimi iflasa uğramasının bəyan edildiyi dövrdə Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasəti kimi ortaya çıxdı. Azərbaycanın müstəqilliyinin ilk dövründə Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün son dərəcə dəqiq ideoloji hədəf seçdi. Azərbaycanın çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirdi. Bu müstəvi siyasət müstəvisi idi.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm siyasəti müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm xalqımızın həyat tərzinə çevrilmişdir. Multikulturalizmin vətəndaş cəmiyyətində həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə bəşəri dəyərlərin, mərhəmət, şəfqət, acıma, dözümlülük, dəyərvermə kimi hisslərin cəmiyyətdə yayılması xüsusi miqyas və məna kəsb edir. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir.

Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır. Amma mənəvi təcrübəsi böyükdür. Dastanlarımızdan, nağıllarımızdan, klassik ədəbi nümunələrimizdən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycan mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Baxın, multikultural dəyərlər harada iflasa uğradı? O ölkələrdə bu belə oldu ki, mənəvi baxımdan formalaşma prosesini başa çatdırandan sonra oraya miqrasiyaların yeni dalğası ilə bu çağa qədər tanış olmayan multikultural dəyərlər, yad baxışlar gəlməyə başladı. Və artıq formalaşmış orqanizm bu süni calağı qəbul etmədi.

**Azərbaycanda isə əvvəlcədən bu dəyərlər süni deyildi. Çünki onlar təbii halda, başlanğıcdan bir yerdə idi. Əsas məsələ budur. Buna görə də biz metodoloji olaraq, "ilkin müxtəliflik", "sonrakı müxtəliflik" anlayışlarını bir-birindən fərqləndirməliyik. İlkin müxtəliflik, əslində, özündə miqrasiya elementi saxlamır. O, müxtəlifliyin ilk başlanğıcdan bir yerdə, yanaşı mövcudluğudur.**

Elə bunu nəzərdə tutaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev qeyd edir ki, "multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib". Elə buna görə də, Azərbaycan Avropa məkanında multikulturalizm siyasətinin qarşısında yaranan problemlərə məğlub olmamağı bacardı.

* * *

Multikultural təhlükəsizlik nədir?! Biz dövlətin milli təhlükəsizlik sisteminin bir çox komponentləri ilə tanışıq. İqtisadi təhlükəsizlik, nəqliyyat təhlükəsizliyi, mədəni təhlükəsizlik, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və s. hər biri ayrılıqda və bütövlükdə dövlətin yaşaması üçün vacib komponentlərdir. Bu sistemin içinə mənəvi, ideoloji həyatın ayrılmaz hissəsi olan multikultural dəyərləri də bir bütöv təhlükəsizlik komponenti kimi daxil etmək mümkündür. Ölkə öz enerji, iqtisadi, mədəni təhlükəsizliyini qoruduğu kimi multikultural təhlükəsizliyini də təmin etməlidir. Multikultural təhlükəsizlik bir sıra prinsiplərdən ibarətdir. Bu prinsiplər dövlətin özünü inamlı, ədalətli, keyfiyyətcə daim yeniləşən bir mahiyyətə malik orqanizm kimi hiss etməsini şərtləndirir.

Multikultural təhlükəsizliyin ümumi mahiyyəti hər hansı bir ölkədə irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiə olunması, etnik, dini, irqi mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi deməkdir. Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunması qarşısında yaranan problemlər inkişaf edərsə, etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olar. Son dövrdə Avropanın bir sıra ölkələrində etnik, millətçilik və dini radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyillərinin artması qeyd olunanların bariz nümunəsidir.

Təəssüf ki, bəzən Avropa ölkələrindən ölkəmizə qarşı Azərbaycanda gedən ictimai, ideoloji prosesləri dərindən duymayan bəzi qurumlar və rəsmi şəxslər tərəfindən milli azlıqlar və insan hüquqları ilə bağlı ağlasığmaz və hətta gülünc tələblər, iddialar irəli sürülür. Anlaşılmaz məqamlarla bağlı Azərbaycan istənilən çərçivədə diskussiya aparmağa həmişə hazırdır. Amma çox zaman anlaşılan, amma qəbul edilə bilməyən, görmək istənilməyən məqamlar ortaya atıldığı zaman biz düşünürük: bu pretenziyaları özünü demokratik ruhlu sayan bir qurum və ya şəxs necə irəli sürə bilər?! Belə bir dövlət qurumu (təəssüf ki, onlar da yox deyil) Azərbaycana tətbiq edilən ikili-üçlü standartlara əhəmiyyət verməyib əzablı yollarla öz-özünü qurmaqla və formalaşdırmaqla, əsrlərdə qalmış, dağıdılmış dəyərlərini bərpa etməklə məşğul olan kiçik bir ölkəni necə ittiham edə bilər?! Orta əsrlərin "xristian-müsəlman" qarşıdurmasının bərpasınamı doğru dünya addımlayır?! Səlib müharibələrinin şeypur səslərimi gurlamaqdadır?! Böyük alman mütəfəkkiri Fridrix Nitsşe, elə bil, belə halı bir öncəgör kimi duyaraq bizləri xəbərdar edirdi: "Səhra böyüyür".

**Səhranı isə böyüməyə qoymaq olmaz. Multikultural dəyərlər sistemi işləyərsə, o dəyərlərə adekvat münasibət formalaşarsa, səhranın böyüməsinin qarşısı alınar. Və dünyanı yaddaş ilahəsi Mnemozinaya xəyanətdə ittiham etməzlər.**

**Azərbaycan kimi müxtəlifliyə ruhən açıq ölkədə multikultural təhlükəsizliyin prinsiplərini formalaşdırmaq, əslində, ideoloji müstəvidə gedən bəzi proseslərin sistemləşdirilməsi cəhdidir.**

* * *

**Multikultural təhlükəsizlik prinsipləri nəyi nəzərdə tutur?!**

Prezident İlham Əliyev öz çıxışlarının birində qeyd etdi ki, ondan xarici ölkələrdə tez-tez təəccüblə soruşurlar: Azərbaycanda müxtəlif konfessiya rəhbərlərinin və üzvlərinin bir-birinə belə tolerant, dostluq münasibətinin əsasında nə durur? Bunun səbəbi nədir?

Etiraf edək ki, bu sualın özü bir azərbaycanlı üçün qəribə səslənir. Çünki müasir azərbaycanlı bu münasibətin mahiyyətini ruhu ilə, mənəvi orqanizmi ilə hiss edir. O bunun səbəbini bilməyə bilər. Udduğun hava kimi, içdiyin su kimi bu münasibət də bizim həyatımız üçün son dərəcə vacibdir. Amma bu sualın, əlbəttə ki, ciddi cavabı da yox deyil. Azərbaycanda belə bir mühitin olması onunla bağlıdır ki, ölkə başçısı, bütövlükdə dövlət müxtəlif konfessiyalara bərabər siyasi münasibət bəsləyir. Heç birini digərindən fərqləndirmir. Bərabər siyasi münasibət də öz növbəsində konfessiyaların bir-birinə və hər birinin ayrılıqda dövlətə tolerant münasibətini şərtləndirir. Və beləliklə: Multikultural təhlükəsizliyin əsas və ən vacib prinsiplərindən biri məhz ölkə daxilindəki müxtəlif konfessiyalara siyasi münasibətin bərabər şəkildə yönəlməsi mexanizmini qurmaqdan doğur.

**Multikultural təhlükəsizliyin başqa bir prinsipi ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına yönəlmiş dövlət qayğısının formalaşdırılması ilə müəyyən edilir.**

⇨ 4

# Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri

3 ⇦ müxtəlif xalqların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü məkandır. Bu məkanı qədim Qafqaz albanlarının bugünkü varisləri olan udinlər, avarlar, ləzgilər, habelə yəhudilər, talışlar, ruslar, gürcülər, kürdlər, yaxın keçmişdə almanlar öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatçılarla eyni millətdən olan, ancaq bu separatçıların əsassız iddialarını qəbul etməyən Azərbaycan erməniləri də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar və ceklilər də Azərbaycana məxsusdur. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. **Ulu Öndər Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".**

Bu gün Azərbaycanda formalaşan yeni, demokratik cəmiyyət müstəqil dövlət quruculuğunda fəal iştirak edir. Öz milli kimliyi onun bu gün özünü azərbaycanlı kimi hiss etməyinə mane olmur. O, öz ana dilində danışa bilir, yaza bilir və öz mədəni ehtiyaclarını ödəyə bilir. Konstitusiyamızın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz".

Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində - siyasətdə, iqtisadiyyatda, təhsildə, idmanda, mənəvi həyatda, bir sözlə, bütün sahələrdə görmək mümkündür.

Multikultural təhlükəsizliyin bir vacib prinsipi də ölkədə mövcud olan mədəni müxtəlifliyin inkişafına dövlət və cəmiyyət tərəfindən dəstək verilməsinin təmin edilməsindən formalaşır.

Etnik birliklərin dili, tarixi, ədəbiyyatı öz-özlüyündə öyrənilməli, onlar ölkə daxilində özlərini yad elementlər kimi hiss etməməlidirlər. Ümumazərbaycan mədəni konteksti onların hər biri üçün mənəvi məkana çevrilməlidir. Bu siyasi xətt bu gün Azərbaycan dövlətinin əsas hədəflərindən biridir.

* * *

Təhsil sahəsi ilə bağlı konkret olaraq onu qeyd etmək olar ki, müstəqilliyin ilk dövründən başlayaraq ölkəmizdə Azərbaycan dili ilə yanaşı rus və gürcü dillərində fəaliyyət göstərən məktəblər olmuşdur. Milli azlıqların sıx yaşadıqları bəzi rayonların orta məktəblərinin ibtidai siniflərində ana dili (avar, kürd, ləzgi, talış, saxur, tat, udi, xınalıq və s.) dərslərinin tədrisi təşkil edilmişdir. 2003-cü ildə Bakıda ivrit, yəhudi tarixini və mədəniyyətini tədris edən özəl yəhudi orta məktəbi açılmışdır. Bütün ali məktəblərdə rusdilli bölmələr fəaliyyət göstərir. Dövlət vəsaiti hesabına rus, avar, talış, kürd, ləzgi, saxur, tat, udi, xınalıq, ivrit dillərində əlifbalar, tədris proqramları və digər dərsliklər, məktəbli lüğətləri mütəmadi olaraq çap edilir.

Azərbaycanda radio və televiziya məkanı da milli və dini azlıqlar üçün açıqdır. Azərbaycan Dövlət Radiosunda kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən radio verilişləri təşkil edilir. İnternet televiziyalarda dillər və mədəniyyətlər öyrənilir.

Mətbuat və kitab nəşri ilə bağlı onu qeyd etmək olar ki, ləzgi, talış, rus, xınalıq, yəhudi, gürcü dillərində qəzet və ya qəzet səhifələri çap edilir. Rus dilində teatr, orta və ali məktəblər və s. fəaliyyət göstərir. Kitablar çap edilir. Ölkədə həyata keçirilən proyektlərdən biri qədim dastan "Kitabi-Dədə Qorqud"la bağlıdır. Alman alimi Haynrix Fridrix Fön Dits 1815-ci ildə bu eposun bir hissəsini alman dilinə tərcümə edib öz giriş sözü ilə bir yerdə çap etdirib. Azərbaycan Prezidenti İlham Əliyev bu hadisə ilə, yəni, Azərbaycan dastanının dünyada alman alimi tərəfindən tanıdılmasının 200 illiyi ilə bağlı xüsusi Sərəncam imzalayıb. Müxtəlif elmi, mədəni, tədris təşkilatları ilboyu bu mühüm hadisəni qeyd edirlər. Bu, bir filoloji bayramdır. Həmin 1815-ci ildə Drezdendə çap edilmiş "Dədə Qorqud" hekayəsini və Henrix Fridrix fon Ditsin müqəddiməsini Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycandakı milli dillərə tərcümə edib çap etdirmək proyektini həyata keçirir. Bir başqa proyekt milli dillərdə yazan şair və yazıçıların əsərlərini çap etməyi nəzərdə tutur. Qədim tarixin öyrənilməsinə dair isə onu demək olar ki, lap elə bu yaxınlarda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən İtaliyada qədim albanların varisi udinlərlə bağlı italyan və Azərbaycan alimlərinin birgə elmi konfransı keçirildi.

**Mədəni müxtəlifliyin qorunmasında vacib şərtlərdən biri bu işlə dövlətlə yanaşı vətəndaş cəmiyyəti və onun fəaliyyətini dəstəkləyən qurumların da məşğul olmasıdır. İlk olaraq bu baxımdan möhtəşəm layihələrə imza atan Heydər Əliyev Fondunu göstərmək olar.** Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Azərbaycan Prezidenti tərəfindən yeni yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və b. bu istiqamətdə real işlər görür.

**Multikultural təhlükəsizliyin Azərbaycan nümunəsindəki təhlili göstərir ki, onun prinsiplərinə məqsədyönlü şəkildə riayət etdikdə ölkənin həm daxili potensialı öz zənginliklərini ən dərin qatlardan daha həvəslə üzə çıxarır, həm də ölkə öz beynəlxalq imicinə müsbət çalarlar əlavə edir. Bu sonuncu məqam lap elə bu yaxınlarda Bakıda keçirilmiş III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun xarici iştirakçıları tərəfindən dönə-dönə vurğulandı.** Daha bir möhtəşəm misal birinci Avropa Oyunlarıdır. Bakıda keçirilən bu Oyunlar bir daha göstərdi ki, Azərbaycan vətəndaşına milli və dini ayrı-seçkilik yaddır, dünyadakı bütün millətlərə o, özününkü kimi baxa bilir.

Bir çox xalqların hələ də ayrıla bilmədiyi bir qarşıdurma var: "öz-özgə" qarşıdurması. Amma "öz və özgə" qarşıdurması bizim həmvətənlərimiz üçün öz kəskin əhəmiyyətini hələ orta əsrlərdə itirmişdir. Bu gün bu qarşıdurma özünün ən "yumşaq" formasını yaşayır.

Müasir azərbaycanlının həm ədəbiyyatında, həm psixologiyasında, həm dünyaya baxışında, həm də müasir siyasi təsəvvürlərində multikultural dəyərlərin yeri aşkardır. Elə buna görə də bu gün "Azərbaycan multikulturalizmi" bir fənn kimi də bizim avropalı həmkarlarımızı özünə cəlb edir. Məmnunluqla qeyd etmək istərdim ki, bu semestr bir sıra universitetlərdə bu fənnin tədrisi başlandı. Litva, Gürcüstan, Rusiya, Bolqarıstan, Belarus, İtaliya, Çexiya universitetləri artıq Azərbaycana olan maraqlarını "Azərbaycan multikulturalizmi" fənninin tədrisi vasitəsilə də nümayiş etdirirlər. Eyni zamanda, bizim proqram əsasında bu fənnin bir sıra Azərbaycan universitetlərində də tədrisi başlamışdır. Həm xaricdə, həm də Azərbaycanda semestrdən semestrə bu universitetlərin sayının artması gözlənilir. Belə bir fənnin ölkədaxili və dünya universitetlərində tədrisinin özü elə multikultural təhlükəsizlik prinsiplərindən biridir.

Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik doktrinalarının prinsipləri qədər vacib və zəruridir. Burda sadalanan prinsiplərin Azərbaycanda bərqərar olması isə Azərbaycan vətəndaşlarının birgə səyi və əməyi nəticəsində mümkün olmuşdur. Kənar ideoloji müdaxilələrin qarşısının alınması, təxribat xarakterli meyillərin minimuma qədər zəifləməsi bu prinsiplərin həyata keçirilməsindən də asılıdır. Ulu öndərin dəqiqliklə göstərdiyi ideoloji hədəfə doğru yaxınlaşdıqca dünya bizi daha adekvat tanıyır, daha maraqla öyrənir. Bu isə Azərbaycana qarşı loyallığın ən müxtəlif məkanlarda güclənməsi deməkdir.

***Kamal ABDULLAYEV,***
***Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri,***
***AMEA-nın həqiqi üzvü***

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Tovuzda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin həll olunması üçün müvafiq tədbirlər görürlər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 23-də Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində Tovuz, Qazax və Ağstafa rayonlarından olan vətəndaşları qəbul edib.

Komitə sədrinə edilən müraciətlər əsasən dini icmaların qeydiyyatı, dini maarifləndirmə, dini icmalara maliyyə yardımının ayrılması, məscidlərin təmiri və təminatı, dini icmaların yaradılması, onların dövlət qeydiyyatına alınması və digər məsələlərlə bağlı olub.

Komitənin sədri Mübariz Qurbanlı hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

Qəbul zamanı müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Qeyri-islam dini icmalarına maliyyə vəsaiti ayrılıb

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini icmalara maliyyə yardımı ayırmağa davam edir. Bu məqsədlə iyunun 1-də Dövlət Komitəsində maliyyə yardımı ayrılmış qeyri-islam dini icmaların sədrlərinin iştirakı ilə toplantı keçirilib.**



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışaraq bildirib ki, 2011-ci ildən dövlət tərəfindən qeyri-islam dini icmalarına maliyyə yardımı ayrılır. Həmin icmaların ölkəmizdə fəal və səmərəli fəaliyyət göstərdiyini, Azərbaycanın maraqlarını müdafiə etdiklərini təqdirəlayiq hal kimi dəyərləndirən Komitə sədri dövlətin dini icmalara dəstəyinin bundan sonra da davam edəcəyini, 19 qeyri-islam dini icmasına 380 min manat maliyyə vəsaitinin ayrıldığını, həmin vəsaitin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsinə sərf ediləcəyini diqqətə çatdırıb.

Azərbaycanda dövlət-din münasibətlərindən danışan Komitə sədri bildirib ki, Respublika Prezidenti və Heydər Əliyev Fondu ölkəmizdə tolerantlığın və multikulturalizmin inkişafı istiqamətində böyük işlər görür, məscid, ziyarətgah, eləcə də kilsə və sinaqoqlar əsaslı təmir və bərpa olunur.

Radikalizmlə mübarizədə bütün dini icmaları fəal olmağa çağıran Mübariz Qurbanlı dini icma sədrlərinə fəaliyyətlərində dini maarifləndirmənin genişləndirilməsinin vacibliyini tövsiyə edib.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev dini icmalara ayrılan vəsaitə görə dövlət başçısı İlham Əliyevə təşəkkürünü bildirib. İcma sədri Azərbaycanın multikultural və tolerant ölkə olduğunu qeyd edib.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili radikalizmə qarşı mübarizənin ən effektiv yolunun maarifləndirmə olduğunu diqqətə çatdırıb, bu işdə qeyri-islam dini icmalarına göstərdiyi köməyə görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının pravoslav dini təşkilatının nümayəndəsi Elnur Əfəndiyev təmsil etdiyi yeparxiya adından dini icmalara maliyyə yardımının ayrılması ilə bağlı imzaladığı Sərəncama görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Sonda qeyri-islam dini icmaları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb.

# Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və Elmi-Dini Şurasının fətvası

**Bismillahir-rəhmanir-rəhim!**

Mübarək Ramazan ayının başlanması münasibəti ilə dünya müsəlmanlarını, o cümlədən ölkəmizdəki müsəlman qardaş və bacılarımızı təbrik edir, Allah-Təaladan ibadətlərimizin və dualarımızın qəbul olunmasını diləyirik. Ramazani-şərifin başlanması ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası aşağıdakıları bəyan edir:

Ramazan məqamı müsəlman dünyası üçün ilahi lütfdür, çünki Allahın Öz bəndələrinə ən böyük neməti olan Qurani-Kərim məhz bu ayda nazil olmuşdur. Müqəddəs Kitabımızda bu barədə belə buyurulur: **"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran Quran Ramazan ayında nazil edilmişdir"** (Bəqərə, 185).

Orucluq dinimizin təməl sütunlarından biridir. Fərqli qayda və vacibatlara uyğun olaraq oruc ibadəti bütün səmavi dinlərdə Uca Yaradan tərəfindən vacib buyurulmuşdur. Necə ki, Qurani-Şərifdə buyurulur: «Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki, (bunun vasitəsilə pis əməllərdən) çəkinəsiniz!» (Bəqərə, 183). Təsadüfi deyil ki, səhih hədislərdə orucluğun Allaha aid olduğu və mükafatının da Allahın Özü tərəfindən veriləcəyi bildirilir.

Oruc ibadəti bir çox insanlar üçün həyatlarının dönüş nöqtəsinə çevrilir, günahlardan tövbə etmələrinə və Allah yolunda xeyirxah işlər görməyə səbəb olur. İnsanın ruhu və cismi üçün olduqca böyük əhəmiyyəti olan orucluq insan mənəviyyatına müsbət təsir göstərən ilahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazanda ehtiyacı olanlara, uşaq evlərinə, ahıl və kimsəsizlərə imkan daxilində kömək etmək, ifrata və israfa yol vermədən iftar süfrələri açmaq Allah nəzərində bəyənilən əməllərdəndir. Bu ayda valideynlərin, elm və fəzilət sahiblərinin xeyir-dualarını almaq, dünyasını dəyişmişlərin ruhlarını yad etmək, insanlar arasında barış və dostluq yaratmaq, cəmiyyətimizdə qarşılıqlı hörməti təbliğ etmək olduqca önəmlidir.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birlikdə Azərbaycan ərazisi üfüqünə uyğun olaraq Ramazan ayının əvvəli, namaz vaxtları, bu mübarək ayın gündəlik duaları, eləcə də bayram tarixini əhatə edən xüsusi təqvim və yaddaş kitabçası tərtib etmişdir. Mənəvi vəhdətimizi qorumaq məqsədilə müxtəlif mənbələrdən daxil olmuş, məzhəb, vaxt ayrıseçkiliyinə səbəb ola biləcək digər təqvimlərə müraciət etmək düzgün deyildir. Buna görə də dindarlarımıza, bölgələrdəki qazılara, səlahiyyətli nümayəndələrə, imam və axundlara ibadət məkanlarımızda bu təqvimə riayətin vacib olduğunu bildiririk. Eyni zamanda, ölkəmizdə tolerantlıq mühitinin qorunub-saxlanması naminə KİV və sosial-media vasitələrində sözügedən təqvimin təbliği və yayılmasını milli vəhdət baxımından vacib sayırıq.

Azərbaycan Respublikasının Dini qurumlarla iş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi arasında bütün sahələr üzrə səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Ümidvarıq ki, mövcud əməkdaşlıq yuxarıda göstərilən məqamların həyata keçirilməsi istiqamətində də öz bəhrəsini verəcəkdir.

Builki hesablamalara əsasən, Ramazan ayının 1-i miladi təqvimlə 18 iyun 2015-ci ilə təsadüf edir. Eydül-Fitr – Ramazan bayramı Şəvval ayının 1-i – iyul ayının 18-nə təsadüf edir və həmin gün bayram namazı qılınacaqdır, İNŞALLAH.

Bildirmək istərdik ki, Azərbaycan hökuməti istər Qurban, istərsə Ramazan bayramlarının iki gün bayram edilməsi barədə qərar vermişdir. Ümumən, Azərbaycanda mövcud bütün konfessiyaların dini bayramlarının dövlət rəhbəri səviyyəsində təbrik olunması ənənəsi vardır. Bu, dövlətimizin dini dəyərlərə ehtiram, qayğısının təzahürü, dövlət-din münasibətlərinin yüksək səviyyəsindən irəli gələn məqamdır və dindarlar tərəfindən minnətdarlıqla qarşılanır.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtında (Ramazan ayının son günündə) çıxarılması və imkansızlara verilməsi İslamda vacib əməllərdəndir. Bu, ehtiyacı olanların da bayram sevinci yaşamasına şərait yaradır. Fitrə canın sədəqəsidir və hər bir imkanı olan müsəlmanın ailənin hər bir üzvü üçün fitrə zəkatı verməsi vacibdir. Qazılar Şurasının qənaətinə görə, bugünkü günə uyğun olaraq adambaşına 5-10 manat arası fitrə zəkatının verilməsi məsləhət görülür.

QMİ Qazılar Şurası və Elmi-Dini Şurası din xadimlərimizə bir daha xəbərdarlıq edir ki, müqəddəs Ramazan ayı ərzində iftar vaxtından qabaq açılan süfrələrdə iştirak etməkdən qəti şəkildə çəkinməlidirlər, belə ki, bu, şəriətə görə böyük günahlardandır. Bu xəbərdarlığımızı nəzərə almayan din xadimləri barəsində ciddi tədbirlər görüləcəkdir.

Qazılar Şurası din xadimlərimizə tövsiyə edir ki, bu əziz günlərdə dinimizdə müqəddəs sayılan şəxsiyyətlərlə yanaşı, torpaqlarımız, Vətənimiz uğrunda canlarından keçən qəhrəman övladlarımızın, o cümlədən, Qarabağ şəhidlərinin əziz xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun.

Builki Ramazan ayı Vətənimizin həyatında böyük ictimai-siyasi əhəmiyyətli hadisə olan ilk Avropa oyunlarının keçirilməsi dövrünə təsadüf edir. Ölkəmizin beynəlxalq müstəvidə uğurlarından olan bu mötəbər tədbir zamanı Azərbaycana 50-yə yaxın dövlətin nümayəndələri, müxtəlif mədəniyyətlərin təmsilçiləri təşrif buyuracaqlar. Azərbaycan dövlətinin iqtisadi, siyasi, sosial sahədə nailiyyətləri-lə yanaşı, dünyaya örnək sayılan tolerantlıq və multikulturalizm sahəsində uğurlarını, dini-mənəvi dəyərlərə ehtiram və qayğısını əyani şəkildə nümayiş etdirmək üçün xoş fürsət olacaqdır, İNŞALLAH. QMİ Qazılar Şurası və Elmi-Dini Şurası din xadimlərimizə və dindarlara tövsiyə edir ki, Avropa oyunları günlərində xarici qonaqlarımıza zəngin mənəvi, tarixi-mədəni irsimizlə yaxından tanış olmaq imkanının yaradılması üçün əllərindən gələni əsirgəməsinlər. Bu, ümummilli əhəmiyyətli işdə din xadimlərimizi fəal vətəndaş mövqeyi, vətənpərvərlik, təəssübkeşlik nümayiş etdirməyə, həmçinin, Azərbaycanda təmsil olunan ənənəvi konfessiya nümayəndələrini də bu işdə fəallıq göstərməyə çağırırıq.

Duaların qəbul olunduğu mübarək Ramazan ayında biz Allah-Təaladan dövlətçiliyimizin möhkəmlənməsi və xalqımızın rifahı naminə böyük işlər görən dövlət rəhbərimiz İlham Əliyev cənablarına xeyir-dualar diləyirik. Ülvi niyyətimiz budur ki, Qadir Allah doğma Azərbaycanımızın qüdrətli və firavan gələcəyini, ölkəmizdə və bütün dünyada sülhü və əmin-amanlığı bərqərar etsin!

Müsəlman qardaş və bacılarımızı mübarək Ramazanın gəlişi münasibətilə bir daha təbrik edir, müqəddəs dinimizə ehtiram nümayiş etdirməkdə, oruc ibadətlərimizi layiqincə tamamlamaqda bizə yardımçı olmasını Uca Rəbbimizdən təvəqqe edirik!

Allah oruc və namazlarınızı qəbul etsin! Amin!

**Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuh!**

***Bakı şəhəri, 4 iyun 2015-ci il***

# Qeyri-islam təmayüllü dini qurumların rəhbərlərinin Prezident İlham Əliyevə MÜRACİƏTİ

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

*Möhtərəm cənab Prezident!*

Biz, Azərbaycanda yaşayan yəhudi, xristian və digər dinlərə mənsub müxtəlif dini qurumların rəhbərləri Zati-Alinizin qayğısı nəticəsində qeyri-islam təmayüllü dini icmalara dövlət büdcəsindən maliyyə yardımı göstərilməsinə görə Sizə sonsuz təşəkkürümüzü bildirir, vahid vətənimiz olan doğma Azərbaycanımızın tərəqqisi və firavan günlərə qovuşması naminə həyata keçirdiyiniz möhtəşəm işlərdə böyük uğurlar, möhkəm cansağlığı, uzun ömür arzulayırıq.

Dini qurumlara dövlət büdcəsindən maddi yardım göstərilməsi artıq ənənəyə çevrilib və biz bunu təqdir etməklə yanaşı, həm də dövlət-din münasibətlərinin tənzimlənməsində Azərbaycana xas xüsusiyyət kimi qiymətləndiririk. Hesab edirik ki, beynəlxalq ictimaiyyət və dünyəvi dövlətlər dini qurumlarla münasibətdə bu yanaşmanı nümunə kimi qəbul etməlidirlər.

Bu gün Azərbaycan Sizin bacarıqlı və fədakar rəhbərliyiniz altında Ulu Öndər Heydər Əliyevin yolu ilə inamla və sürətlə irəliləyir, ölkəmizin xoşbəxt gələcəyinin təməli daha da möhkəmlənir. Sizin apardığınız siyasətin uğurunu təmin edən ən önəmli cəhət Ümummilli Liderimizin alternativsiz siyasi xəttinə sonsuz sədaqətiniz və Azərbaycan xalqının – ölkəmizdə yaşayan müxtəlif millətlərin və dinlərin mənsublarının inam və etimadını qazanmağınız, xalqa arxalanmağınızdır.

Biz ölkəmizdə sabitliyin və sürətli inkişafın təmin olunmasına, eləcə də vətəndaş həmrəyliyinin, vicdan azadlığının və tolerantlığın qorunub saxlanılmasına, inkişafına görə dünyanın ən böyük azərbaycanlısı, Ulu Öndər Heydər Əliyevə və Onun böyük davamçısı kimi Zati-Alilərinizə minnətdarıq.

Bu gün Azərbaycan təkcə iqtisadi göstəricilərinə və ictimai-siyasi sabitliyinə görə deyil, həm də dini durumun və multikulturalizmin səviyyəsi, eləcə də xalqın milli-mənəvi dəyərlərinə yüksək münasibət baxımından regionun lider dövlətidir. Çünki ölkədə dini etiqad azadlığının və tolerantlıq prinsiplərinin təmin olunması, eyni zamanda milli-mənəvi dəyərlərimizin və müxtəlif konfessiyalara məxsus tarixi-dini abidələrimizin qorunması Sizin xüsusi diqqətinizdədir.

Siz hər bir azərbaycanlının Prezidenti kimi dini, milli mənsubiyyətinə fərq qoymadan bütün ölkə vətəndaşlarının ən ümdə hüququ sayılan din və vicdan azadlığının etibarlı təminatçısısınız. Bu gün Zati-Alilərinizin rəhbərliyi altında Azərbaycan hökuməti, eyni zamanda UNESCO və ISESCO-nun xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin və dini abidələrimizin himayəçisi kimi böyük tarixə malik məscid və ziyarətgahların, eləcə də kilsə və sinaqoqların bərpası sahəsində ardıcıl tədbirlər həyata keçirir.

Bu həqiqəti biz, Azərbaycanda yaşayan müxtəlif konfessiyaların nümayəndələri daima xüsusi ehtiram, minnətdarlıqla vurğulayır və yüksək dəyərləndiririk. Zati-Aliləriniz əmin ola bilər ki, dövlət tərəfindən göstərilən bu qayğı və ehtiramın qarşılığında Azərbaycanımızın sədaqətli vətəndaşları kimi doğma vətənimizin tərəqqisi naminə Sizin ətrafınızda bundan sonra da sıx birləşəcəyik.

Biz inanırıq ki, Zati-Alilərinizin doğma Azərbaycanımızla bağlı bütün arzuları reallaşacaq, apardığınız uğurlu və müdrik sülh siyasəti nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa ediləcək, yurd-yuvalarından didərgin düşərək məcburi köçkün həyatı yaşamağa məcbur olmuş bir milyondan artıq yurddaşımız öz doğma torpaqlarına qayıdacaqdır.

*Möhtərəm Prezident,*

Fürsətdən istifadə edərək qarşıdan gələn 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edir, Zati-Alilərinizə Azərbaycanın xoşbəxt gələcəyi naminə dəyərli fəaliyyətinizdə bundan sonra da yeni-yeni uğurlar arzulayırıq.

**Tanrı Sizi qorusun!**



# Dövlət Komitəsində Avropa Komissiyasının nümayəndə heyəti ilə görüş keçirilib

İyunun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Avropa Şurası çərçivəsində fəaliyyət göstərən İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Dövlət Komitəsinin rəhbərliyi ilə yanaşı, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinin əməkdaşları da iştirak ediblər.

Azərbaycanda dövlət-din münasibətləri Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimləndiyini bildirən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın tolerantlıq və multikultural dəyərlərə görə dünyada nümunəvi ölkələrdən olduğunu diqqətə çatdırıb. Ölkəmizdə dini durumun sabit olduğunu vurğulayan Dövlət Komitəsinin sədri müxtəlif konfessiyaların sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini bildirib. Ölkəmizdə məscid, sinaqoq və kilsələr insanların ixtiyarına verilib və ibadət evlərinin bir qisminin təmir və bərpası Azərbaycan hökumətinin hesabına həyata keçirilir. Mübariz Qurbanlı hər il dövlət büdcəsindən dini icmalara maliyyə vəsaitinin ayrıldığını və bu vəsaitin qeyri-islam dini icmalara da verildiyini vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlıqlarını bildirən Komissiya üzvləri ölkəmizdə dini azlıqların vəziyyəti ilə maraqlanıb və bu məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qanunları pozan icmalar ləğv ediləcək

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin Zaqatala, Şamaxı və Qobustan rayonlarının bir neçə kəndindəki məscidlərdə qeyri-qanuni fəaliyyət göstərən, QMİ-yə tabe olmaqdan imtina edən dini icmalarla bağlı qaldırdığı məsələ ilə əlaqədar araşdırmaya başlayıb. Komitə sədri Mübariz Qurbanlı APA-ya açıqlamasında bildirib ki, ümumiyyətlə, bu məscidlərdə icma yoxdur.

Mübariz Qurbanlının sözlərinə görə, həmin məscidlər hüquqi baxımdan qeydiyyata alınmadan fəaliyyət göstərir: "Bu gün Azərbaycanda 2050 məscid var. Bunun 1600-ü fəaliyyətdədir, qalanı tarixi abidə kimi qorunur. Fəaliyyət göstərən məscidlərin bir qisminin qeydiyyat məsələsi həllə də həll olunmadan qalır".

Komitə sədri deyib ki, Azərbaycanın müstəqilliyinin ilk illərində yaranmış vəziyyətdən istifadə edənlər ölkədə bir sıra məscidlər inşa edib, rəsmiləşdirilməsini həyata keçirməyiblər: "Orada insanlar yığışıb, özlərindən axund və ya imam seçiblər. Həmin məscidlər qeyri-rəsmi fəaliyyət göstərir. O axund və ya imam əmək haqqı da alır. Dövlətin də buna indiyə qədər yumşaq münasibət nümayiş etdirməsinin səbəbi dini inancla bağlıdır. Yəni imkan verilib ki, insanlar yığışıb ibadət edə bilsinlər. Amma bunu rəsmiləşdirmək lazımdır. Bu işlə məşğuluq. Rəsmiləşən məscidlərdə qanuni icmalar yaradılacaq və QMİ tərəfindən ora rəsmi axund, yaxud imam təyin olunacaq".

Mübariz Qurbanlı bildirib ki, qeyri-qanuni fəaliyyət göstərən, yaxud qeydiyyatdan keçmiş, lakin qanunları pozan icmalar məhkəmə yolu ilə ləğv ediləcək: "Artıq bir neçə icma məhkəmə yolu ilə ləğv olunub, elə icmalar da var ki, özü özünü buraxıb".

Komitə sədri bu məsələ ilə bağlı proseduru da izah edib: "Məscidlərə dindarların təyinatı QMİ-nin səlahiyyətindədir. QMİ o yerlərə rəsmi din xadimi təyin edir ki, orada rəsmi dini icma var. O yerdə dini icma yarana bilər ki, həmin məscidin hüquqi ünvanı var. Hüquqi ünvan da odur ki, həmin məscid yerli icra hakimiyyətində reyestrə daxil olur və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən də qeydiyyata alınır. Məscid qeydiyyata alınıbsa, orada icma yaratmaq olar".

# *Bakıda dini icmaların maarifləndirmə layihələrinə start verildi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən ölkədə fəaliyyət göstərən bir sıra dini icmalara maliyyə yardımı ayrılıb. Bakı şəhəri üzrə Qaradağ rayonu, Qobustan qəsəbəsi, "Şamlı" məscidi dini icması, Müşfiqabad qəsəbə məscidi dini icması, Qobustan qəsəbəsi "Şıxlar" kənd məscidi dini icması, eləcə də Yasamal rayonu "Xanım Zəhra" məscidi din icması maliyyə yardımı ayrılan dini icmalar sırasındadır. Adıçəkilən dini icmalarda bu məqsədlə milli-mənəvi dəyərlərimizin təbliği və maarifləndirmə işinin təşkili üzrə layihələrə start verilib. "Gənclər arasında dini maarifləndirmə kursunun təşkili" adı altında həyata keçirilən layihələrdə əsas məqsəd gənclərə İslam dininin əsas anlayışlarının düzgün şəkildə çatdırılması, milli-mənəvi və ənənəvi dəyərlərimizin qorunması, dini radikalizmlə mübarizə və dini icmaların bu istiqamətdəki fəaliyyətinin daha da genişləndirilməsidir. Maarifləndirmə layihələrinin həyata keçirilməsinə dini icmalarla yanaşı, ilahiyyatçı mütəxəssislər də cəlb olunub. Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsi layihələrin təyinatı üzrə həyata keçirilməsi, dini icmalara bu istiqamətdə köməkliyin göstərilməsi, eləcə də mütəxəssislərin kurslarda iştirakının təmin edilməsi üzrə fəaliyyətini davam etdirir.

# Dövlət Komitəsində Ramazan ayı ilə bağlı müşavirə keçirilib

**İyunun 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Ramazan ayının başlaması ilə əlaqədar müşavirə keçirilib. Müşavirədə DQİDK-nın rəhbərliyi, eləcə də Dövlət Komitəsi Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.**



Müşavirəni açan Komitə sədri Mübariz Qurbanlı gündəlikdəki məsələlər barədə ətraflı məlumat verərək bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Ramazan ayı ilə bağlı tədbirlər planı hazırlanaraq təsdiq edilib. Bununla əlaqədar Dini Komitənin regional şöbələrinin üzərinə düşən vəzifələr müzakirə edilib. Komitə sədri Ramazan ayında Dövlət Komitəsinin şöbələrinin yerlərdə ayrı-ayrı məsələlərlə əlaqədar iş fəaliyyətini daha da gücləndirməli olduğunu deyib. Regional şöbələr Ramazan ayı ərzində faktiki gücləndirilmiş iş şəraitində fəaliyyət göstərməli və bölgələrdə monitorinqlər təşkil etməlidirlər.

Mübariz Qurbanlı bu müddətdə Komitə üçün ölkədəki dini əhval-ruhiyyəni daha dərindən öyrənmək imkanının yarandığını söyləyib. Komitə sədri Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təsdiq edilərək dərc edilən Ramazan ayının təqviminə əməl edilməsinə nəzarətin də Dövlət Komitəsinin və onun şöbələrinin üzərinə düşdüyünü deyib. Buna görə də regional şöbələrin əməkdaşları tərəfindən yerlərdə monitorinqlər keçiriləcək.

Dini maarifləndirmə işinin gücləndirilməsinin vacibliyini vurğulayan Mübariz Qurbanlı Ramazan ayında regional şöbələrin maarifləndirmə işində daha aktiv fəaliyyət göstərmələrinin vacib olduğunu bildirib. Komitə sədri Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq dini icmalara verilən maliyyə vəsaitinin dini maarifləndirmə işinə düzgün sərf edilməsi ilə bağlı şöbələrin rəhbərlərinə tövsiyələrini verib. Mübariz Qurbanlı bu cür tədbirlərin keçirilməsinin milli-mənəvi dəyərlərin təbliğini gücləndirdiyini, eyni zamanda radikal qruplara qarşı ideoloji sədd yaratmış olduğunu bildirib.

Müşavirənin sonunda Dövlət Komitəsinin şöbələrinin ikinci yarımil üçün tədbirlər planı təsdiq edilib.

## DİNİ MAARİFLƏNDİRMƏ ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR

### Zaqatalada

Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialında "Yeni Fikir" JHİB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Yeniyetmə və gənclərin radikal dini meyillərdən və zərərli vərdişlərdən çəkindirilməsi" mövzusunda növbəti tədbir keçirilib.

Layihənin rəhbəri Elmira Mehdiyeva bildirib ki, araşdırmaların nəticələrinə əsasən, hələ də bəzi gənclər dini biliklərinin azlığı və digər səbəblər ucbatından zərərli ideologiyaların təsiri altına düşür, gələcək həyatları üçün doğru olmayan, bəzən də cinayət tərkibli hərəkətlərə yol verirlər. Odur ki, bu bölgədə gənclər arasında vətənpərvərlik və dövlətə sədaqət hisslərinin təbliğin istiqamətində maarifləndirici tədbirlərin daha geniş şəkildə həyata keçirilməsinə ehtiyac var. Bu sahədə dövlət qurumları ilə yanaşı, QHT-lər də fəal iş aparmalıdırlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şimal-Qərb regional idarəsinin müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov mövzu barədə ətraflı məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

### Şirvanda

**İyunun 2-də Şirvan şəhərində din xadimləri ilə görüş keçirilib. Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsinin şöbə müdiri Aydın Alıyev, Qafqaz Müsəlmanları İdarəsinin Şirvan bölgəsi üzrə qazısı Hüsnü Həsənov, Şirvan Şəhər İcra Hakimiyyətinin məsul işçisi Adəm Hüseynov, Şirvan şəhərinin axundu Əvəz Mehrəliyev iştirak ediblər.**

**"Dövlət-din münasibətlərinin yaxşılaşdırılması və radikal dini cərəyanlara qarşı birgə mübarizə" mövzusunda fikir mübadiləsinin aparıldığı görüşdə ölkəmizdə dövlət-din münasibətlərindən danışılıb, bundan sonra da dəyərlərimizin inkişafı üçün lazımi tədbirlərin həyata keçiriləcəyi vurğulanıb.**

### Bakıda

İyunun 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Bakı şəhəri üzrə şöbəsi və Xəzər rayonu İcra Hakimiyyətinin nümayəndələri ilə Xəzər rayonu ərazisində yerləşən dini icma rəhbərlərinin görüşü keçirilib. Görüşdə dini icmalarla koordinasiyalı işin təşkili, onlara metodiki köməkliyin göstərilməsi və rayon ərazisindəki dini durumla bağlı fikir mübadiləsi aparılıb. Xəzər rayonu İcra Hakimiyyəti başçısının müavini Arif Balayev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə Xəzər rayonu ərazisindəki dini icmalara göstərdikləri dəstəyə minnətdarlığını bildirib, birgə fəaliyyətin təşkilini mühüm hesab edib.

DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev dini icmaların milli-mənəvi dəyərlərin təbliğində əhəmiyyətli rola malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə maarifləndirmə işinin təşkili üçün ayrılan maliyyə yardımı dini icmaların fəaliyyətinin təkmilləşməsinə öz töhfəsini verəcək. Dini icma rəhbərlərinə məscidlərdə azanın Qafqaz Müsəlmanları İdarəsinin AMEA Şamaxı Astrofizika rəsədxanası ilə birgə tərtib etdiyi təqvim əsasında səsləndirilməsinə nəzarət olunması ilə bağlı göstəriş verilib.

Sonda dini icma rəhbərlərini maraqlandıran suallar cavablandırılıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Bakı şəhəri üzrə şöbəsi və Qaradağ rayonu İcra Hakimiyyətinin nümayəndələri ilə iyunun 17-də rayonda fəaliyyət göstərən dini icmaların rəsmiləri və din xadimləri ilə keçirilmiş görüşdə dini icmaların fəaliyyəti, radikalizmlə effektiv mübarizə, dövlət-din münasibətləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Əvvəlcə rayondakı dini durumla bağlı ətraflı məlumat verilib, Qafqaz Müsəlmanları İdarəsinin dini icmalara və din xadimlərinə Ramazan ayı ilə əlaqədar müvafiq tövsiyələri çatdırılıb.

DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulduğunu, dini icmaların fəaliyyətinə hərtərəfli dəstək göstərildiyini bildirərək maarifləndirmə işinin təşkili məqsədilə Qaradağ rayonu ərazisindəki 3 dini icmanın təqdim etdiyi layihələrin təsdiqləndiyini və Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında həmin icmalara maliyyə yardımı ayrıldığını diqqətə çatdırıb.

### Biləsuvarda

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyunun 10-da "Dövlət-din münasibətlərinin yaxşılaşdırılması və radikal dini cərəyanlara qarşı birgə mübarizə" mövzusunda keçirilmiş görüşdə icra başçısının birinci müavini Xanlar Məmmədov, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Aydın Alıyev, Biləsuvar şəhər "Cümə" məscidinin axundu, QMİ-nin səlahiyyətli nümayəndəsi Əlifağa Murtuzov və rayon ağsaqqalları iştirak ediblər. Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin din sahəsində gördüyü işlərdən, bu işlərin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışılıb, gənclər arasında dini maarifləndirmə işinin daha yüksək səviyyəyə çatdırılmasının, dini radikalizmə qarşı mübarizənin qanun çərçivəsində genişləndirilməsinin zəruriliyi qeyd edilib.**

### Abşeron rayonunda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə iyunun 18-də Abşeron rayonunda fəaliyyət göstərən dini icmaların sədrləri, din xadimləri və fəal dindarlarla görüş keçirilib.

Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Azər Abbasov Ramazan ayının başlanması ilə əlaqədar dindarları təbrik edərək Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təsdiq olunan təqvimə əməl edilməsinin vacibliyini din xadimlərinin diqqətinə çatdırıb.

Sonra icmaların fəaliyyətinin müxtəlif aspektləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, icma sədrləri və din xadimlərinə Dövlət Komitəsinin dəstəyi ilə nəşr olunmuş kitablar və çap vəsaitləri, həmçinin QMİ tərəfindən təsdiq olunaraq dərc edilən Ramazan təqvimləri paylanılıb.

### Sumqayıtda

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsi və QMİ-nin Sumqayıt şəhəri üzrə qazısının birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində keçirilmiş görüşdə DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Azər Abbasov Ramazanın bütün müsəlman dünyasında birlik, bərabərlik ayı olduğunu qeyd edib və dini həmrəyliyin bu ayda da qorunub saxlanılması üçün din xadimlərinin və dini icmaların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. Dini qurumlarla iş üzrə şöbənin məsləhətçisi Əli Həziyev dini icmalara maliyyə vəsaitlərinin ayrılması üçün layihənin təqdim olunma qaydaları barəsində icma sədrlərinə məlumat verib.**

**Sonda dini icma sədrlərini və din xadimlərini maraqlandıran suallar cavablandırılıb.**

### Qubada

İyunun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Quba şəhəri "Ərdəbil" məscidində "Dini radikalizmin ictimai – siyasi fəsadları" mövzusunda tədbir keçirilib.

Dini radikalizmin və ekstremizmin mənfi xüsusiyyətlərindən bəhs edən DQİDK-nın Quba bölgəsi üzrə şöbə müdiri Eynulla Nurullayev bildirib ki, müxtəlif dinlərin nümayəndələrinin yaşadığı Azərbaycanda stabillik və sabitlik hökm sürür.

Məscidin axundu Naib Səttarov mövzu ilə bağlı öz fikirlərini bölüşüb, qeyd edib ki, bu cür görüşlər mütəmadi xarakter daşımalıdır.

Həmin gün eyni mövzuda Quba rayonu Xucbala və Digah kəndlərinin məscidlərində də tədbir keçirilib.

Tədbirlərin sonunda DQİDK tərəfindən hazırlanmış dini ədəbiyyat məscidlərə hədiyyə olunub.

# Mübariz Qurbanlı: Azərbaycanın din siyasəti demokratik dövlət quruculuğu kursuna, dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının AZƏRTAC-a müsahibəsi*

**- Azərbaycanda tolerantlıq ənənələrinin, milli-mənəvi dəyərlərin qorunması və inkişafı istiqamətində hansı işlər görülür?**

- Bu gün Azərbaycan sözün həqiqi mənasında dünyada tolerantlığa nümunə olan ölkədir. Bu, bütün dünyada qəbul olunur. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Ötən ay Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında Prezident İlham Əliyev öz nitqində bütövlükdə İslam dünyasında gedən prosesləri, həmçinin dünyada mədəniyyətlərarası münasibətləri çox məntiqli və elmi şəkildə təhlil etdi. Dövlətimizin başçısı xüsusi qeyd etdi ki, bu gün Azərbaycanın tolerantlığı bütövlükdə ayrı-ayrı dünya ölkələri üçün bir örnək rolunu oynaya bilər.

Azərbaycan həm də multikultural bir cəmiyyətdir. Multikulturallıq öz mədəniyyətini inkar etmək demək deyil. Multikulturallıq və tolerantlıq başqa mədəniyyətlərə, başqa dinlərə, başqa xalqların xüsusiyyətlərinə hörmətlə yanaşmaqdır. Tolerantlığın bir çox növləri var və Azərbaycanda bunların hər birinin özünəməxsus yeri var. Lakin Azərbaycan xalqının milli mentalından, adət-ənənələrindən irəli gələrək dini tolerantlıq daha qabarıq şəkildə özünü göstərir. Azərbaycan cəmiyyətinə baxdıqda bu, daha aydın şəkildə görünür. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda 2050-dək məscid, 10-dan çox kilsə var. Ölkəmizdə Xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir. Azərbaycan, demək olar ki, yəhudilərin İsraildən sonra ən azad dini icma şəklində fəaliyyət göstərdiyi ölkədir. Azərbaycanda 10-a qədər sinaqoq, 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Biz Ermənistanın Azərbaycana qarşı təcavüzünü dinlərarası qarşıdurma kimi yozmağın tərəfdarı deyilik. Təəssüf ki, ermənilər bütün təbliğatlarında bu münaqişəni, az qala, dinlərarası qarşıdurma kimi də təqdim etməyə çalışırlar.

Bu gün Azərbaycanda dini durum sabitdir. Burada heç vaxt dini qarşıdurmaya çağırış olmayıb, dini ayrı-seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur və ölkə qanunları da bunun əleyhinədir. Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında xalqımıza xas olan humanizmin və multikultural dəyərlərin müstəsna rolu var. Azərbaycanda tarixən İslam dininin müxtəlif təriqətlərinin birgəyaşayışı mövcud olub. Bizdə heç vaxt təriqət baxımından qarşıdurma müşahidə edilməyib. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edirlər, bir-birinə hörmətlə yanaşırlar.



*Hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Bu qruplar İslamı içəridən dağıtmağa, bu dini zəiflətməyə, gözdən salmağa çalışırlar.*

Tolerantlıq heç də başqalarına güzəştə getmək deyil, tolerantlıq öz mövqeyini, öz xüsusiyyətlərini qoruyaraq başqalarına hörmətlə yanaşmaqdır. Bəzən tolerantlığı başqaları qarşısında geri çəkilmək kimi təbliğ etmək istəyənlər olur. Bu, yanlışdır.

İslam dünyasının bir parçası olaraq Azərbaycan milli-mənəvi dəyərlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayır. Xalqımızın tarixdən gələn bu xüsusiyyətlərini gələcək nəsillər də yaşatmalıdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı daha da sürətlənib. Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz öz milli-mənəvi dəyərlərimizi də qoruyuruq.

Qloballaşma prosesinin sürətlə getdiyi dövrdə hər bir xalq, hər bir mədəniyyət özünüqoruma instinktini işə salır. Qloballaşma milli adət-ənənələri, milli xüsusiyyətləri tədricən qlobal formaya çevirir. Belə bir şəraitdə ən yaxşı yol milli xüsusiyyətlə qloballaşmanın göstərdiyi təsiri uzlaşdırmaqdır.

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ulu Öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıqdır. Milli-mənəvi dəyərlərimizi qorumaq bizim ən ümdə vəzifələrimizdən biridir. Bu gün milli-mənəvi dəyərlərimizi təhdid edən müxtəlif amillərlə də rastlaşırıq. Milli-mənəvi dəyərlərimiz xarici təsirlərə məruz qalır. Bu təsirlər müasir dünyamızın reallığıdır. Milli-mənəvi dəyərlərimizin başqa xalqların dəyərləri ilə qovuşması prosesi gedir. Biz də dünyada gedən bu prosesdən kənarda deyilik. Milli-mənəvi dəyərləri, milli xüsusiyyətləri, adət-ənənələri qorumaq üçün işlərin görülməsi zəruridir. Əks təqdirdə, dünyada gedən mədəniyyətlərarası qovuşmada böyük təsir gücü altında mədəniyyətlərin də, milli adət-ənənələrin də assimilyasiyası prosesi gedə bilər.

Biz bu gün Qərb mədəniyyətinin ciddi şəkildə dünyaya yayılması prosesini müşahidə edirik. Bu prosesdə xalq öz milli-mənəvi dəyərlərini qorumaq üçün lazımi tədbirlər görmürsə onun mədəniyyəti də mütləq assimilyasiyaya uğraya bilər. Bu, qloballaşmanın böyük problemlərindən biridir. Dində də belədir. Əgər biz İslam dininin dəyərlərinə diqqət yetirməsək, öz ərazimizdə İslam dini əvəzinə başqa dinlərin də tədricən yer tutmasına gətirib çıxaran hadisənin şahidi olacağıq. Ona görə, milli-mənəvi dəyərlərin tərkib hissəsi olan dinimizin də qorunmasına ehtiyac var.

Biz bu gün milli-mənəvi dəyərlərimizin təbliğ və təşviqindən danışanda onun tərkib hissəsi olan İslam dəyərlərinə və müasirliyə diqqət yetirməliyik. Buna görə milli-mənəvi dəyərlərimizin qorunması dedikdə, eyni zamanda İslamın əsl mahiyyətini, əsl dəyərini olduğu kimi gənc nəslə çatdırmağı zəruri hesab edirik.

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdiriləcək. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Məlum olduğu kimi, dövlətimizin başçısının 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb. Artıq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini icmalara maliyyə yardımı ayırmağa başlayıb. Bu yardım ölkəmizdə dini maarifləndirmə işinə və milli-mənəvi dəyərlərin təbliğinin daha da gücləndirilməsinə sərf ediləcək. Milli-mənəvi, o cümlədən dini dəyərlər insanlara olduğu kimi çatdırılmalıdır. İcmalar tərəfindən layihələrin reallaşması, dini maarifləndirmə və milli-mənəvi dəyərlərin düzgün təbliği, xüsusilə gənclərə dinin olduğu kimi izah edilməsi radikalizmlə mübarizədə də öz müsbət təsirini göstərəcək.

**- Ölkədə dini radikalizmin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?**

- Təəssüf ki, bu gün İslam dünyasının içərisində çox ciddi bir proses gedir. İslamın içəridən zəiflədilməsi üçün cəhdlər müşahidə edilir. Bu cəhdlər İslam dini daxilində radikal qrupların yaradılmasına, İslamı gözdən salan qruplara kimlərinsə dəstək verərək onların səhnədə qalmasına gətirib çıxarır. Əslində bütün dinlər sülhü, əmin-amanlığı, insanların bir-birinə ehtiramını və bərabərliyi təşviq edir. Amma dinlərin daxilində zamana bağlı olaraq radikal qruplar meydana gəlib və indi də gəlir. Radikal qruplar bütün dinlərin içərisində var və onlar din pərdəsi altında müxtəlif siyasi maraqlarını həyata keçirmək istəyirlər. Hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Bu qruplar İslamı içəridən dağıtmağa, bu dini zəiflətməyə, gözdən salmağa çalışırlar. Bu qruplar həm sivilizasiyalararası mübarizənin, həm beynəlxalq iqtisadi güc mərkəzləri arasındakı mübarizənin, həm də müəyyən mənada

# Mübariz Qurbanlı: Azərbaycanın din siyasəti demokratik dövlət quruculuğu kursuna, dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır

dinlərarası mübarizənin törəmələridir. Çox təəssüf ki, həmin qrupların içərisində nadanlıqdan onlara qoşulanlar da var. Milli-mənəvi dəyərlərə xələl gətirmək istəyən bu cür qruplara qarşı ciddi mübarizə aparılmalıdır. Bu gün məlumdur ki, din pərdəsi altında, İslamı qorumaq adı ilə fəaliyyət göstərən xeyli qruplaşmalar var. Bu, İslamı qorumaq deyil, İslam adı altında bu dinə ziyan vurmaqdır. Milli-mənəvi dəyərlər geniş anlayış olaraq bütün sahələri əhatə etməklə bərabər, İslam dəyərlərini də özündə ehtiva edir. İslam dəyərləri isə olduğu kimi qorunmalı, öyədilməli, gənc nəslə çatdırılmalıdır. Əgər kimsə din adı altında şəxsi məqsədlərinə çatmaq üçün İslamdan istifadə etmək istəyirsə, onun qarşısında durmaq lazımdır. İslam dəyərləri insanlığa xidmət edən dəyərlərdir. Lakin ondan siyasi, iqtisadi maraqlar üçün istifadə etmək həmin dəyərlərdən uzaqlaşmaq deməkdir. Ona görə də Azərbaycanda İslam dəyərlərinin təbliğində dini maarifçiliyə geniş yer ayrılıb. Proqram var və bu proqrama uyğun olaraq Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə fəaliyyət göstəririk. Bu istiqamətdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti xüsusi qeyd edilməlidir. Bütün bu işlər milli-mənəvi dəyərlərin qorunması istiqamətində Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi konseptual yolun icrası üçün çox böyük rol oynayır. Cəhalət, xurafat olan yerdə mütləq dini radikalizm baş qaldırır. Dini radikalizmin yaranması üçün mühit olmamalıdır. O mühitin olmaması üçün isə elm, təhsil mütləqdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin tərkib hissəsində milli-mənəvi dəyərlərimizin qorunması önəmli yerlərdən birini tutur. Bu dəyərləri qorumaq üçün təbii ki, dini maarifləndirməyə də xüsusi diqqət yetirməliyik.

*Cəhalət, xurafat olan yerdə mütləq dini radikalizm baş qaldırır. Dini radikalizmin yaranması üçün mühit olmamalıdır. O mühitin olmaması üçün isə elm, təhsil mütləqdir.*

Dini radikalizmə, dini ekstremizmə qarşı mübarizə üçün bir neçə istiqamətdən istifadə edilməlidir: İdeoloji yol - buraya əsasən medianın fəaliyyəti, müxtəlif maarifləndirici kitabların nəşri, milli-mənəvi dəyərlərə ziyan vura biləcək amilləri görərək qarşısını vaxtında almaq istiqamətində işlərin görülməsi daxildir. İnzibati yol – buraya radikal, ekstremist qruplar qanunu pozduğu, qanuna zidd hərəkətlər etdiyi zaman görülən tədbirlər daxildir. İqtisadi yol – buraya isə kimlərinsə qeyri-qanuni yolla vəsait əldə edərək milli-mənəvi dəyərlərimizin zədələnməsi üçün istifadə edilməsinə yol verilməməsi istiqamətində tədbirlərin həyata keçirilməsi daxildir.

Biz iqtisadiyyatda açıq qapı elan etsək də, mənəvi aləmdə bu addımı ata bilmərik. Dünyanın istənilən şirkəti gəlib burada iş görə bilər. Amma istənilən dini cərəyanın burada yayılmasına imkan verə bilmərik. Baxmayaraq ki, Azərbaycan tolerant ölkədir, ancaq tolerantlıq deyə öz mövqelərimizi də başqasına güzəştə gedə bilmərik. Tolerantlıq o demək deyil ki, radikal cərəyanlar burada istədiyini edə bilər. Milli-mənəvi dəyərlərimizə müdaxilə ediləndə bu, artıq tolerantlıq olmur. Tolerantlıq dözümlü yanaşma deməkdir. Biz həm Xristianlıqdan, həm də İslamdan gələn radikal cərəyanların qarşısını almalıyıq və alırıq da.

Milli-mənəvi dəyərlər hər bir ölkənin özünə məxsusdur və radikal qrupların bu dəyərlərə ziyan vurmasına imkan verilməməlidir. Düzdür, Azərbaycanda müəyyən dini cərəyanların, radikal dini qrupların təzahürlərini müşahidə edirik. Bu cür qrupların Azərbaycanda kök atması, yayılması cəhdləri olur. Amma biz həmişə demişik ki, həmin qrupların kök atması, dərinləşməsi mümkün deyil. Çünki Azərbaycan xalqı bütövlükdə ənənəvi İslam dəyərlərinin tərəfdarıdır. Kənardan Azərbaycana gətirilərək burada təşviq və təbliğ edilən radikal qrupların yaymaq istədikləri müxtəlif xarakterli fikirlər xalq tərəfindən dəstək almır. Radikal qrupların yaydıqları bu və ya digər fikirlərin arxasınca gedənlər demək olar ki, yox səviyyəsindədir. Gedənlər də dini inanc üçün yox, xırda maraqlar üçün gedirlər. Bu, bir daha sübut edir ki, Azərbaycanda radikal qrupların dayaqları yoxdur. Onların hər hansı bazasının yaradılması imkansızdır. Azərbaycanda radikal qrupların fəaliyyətinə hər hansı bir mühit yoxdur. Azərbaycanda radikalizmə meyilli qrupların iqtisadi və ideoloji əsasları tamamilə iflasa uğrayıb. Amma bu da bizi arxayın sala bilməz. Bu, o demək deyil ki, biz sakit durub müşahidə etməliyik. Biz ətrafımızda gedən hadisələri görürük, izləyirik, onlardan nəticə çıxarırıq.

Radikalizmlə mübarizədə Dövlət Komitəsi cəmiyyətin bütün strukturları, o cümlədən qeyri-hökumət təşkilatları və ictimai birliklərlə birgə bir sıra layihələr həyata keçirir. Azərbaycanın bölgələrində gənclərlə, ziyalılarla, bütövlükdə cəmiyyətin müxtəlif təbəqələri ilə daha çox görüşlərə ehtiyac var, biz bu görüşləri daha da artırırıq. Biz gənclərlə görüşürük, bu görüşlərdə milli-mənəvi, islami dəyərlər, müasir dünyamızda din-dövlət münasibətləri, radikalizm və onun fəsadları, dini radikalizmlə mübarizə, dini maarifləndirmə, tolerantlıq, multikulturalizm kimi mövzular müzakirə edilir. Biz regionlarda ağsaqqalların, ziyalıların gücündən istifadə edirik. Belə görüşlər davam edəcək. Qafqaz Müsəlmanları İdarəsinin də apardığı işlər – imamlar və axundlar üçün təşkil etdiyi kurslar, yas mərasimlərində israfçılığın aradan qaldırılması, axundlar və imamlar üçün xüsusi nəşrlərin hazırlanması, radikalizmə qarşı mübarizə məqsədilə əyani vəsaitlərin dərc olunması – bütün bunlar ölkəmizdə İslam dininin və digər dinlərin ənənəvi formada fəaliyyətinin inkişafına öz təsirini göstərəcək, radikal qrupların hərəkətlərinin qarşısını almağa kömək edəcək. Eyni zamanda, dindən istifadə edib kimlərsə ictimai-siyasi sabitliyi pozmağa cəhd edə bilməyəcək. Çünki Azərbaycan dövləti güclüdür. Dövlətin, iqtisadi, siyasi, mənəvi dayaqları güclüdür.

**- Azərbaycanda dövlət-din münasibətlərinin hazırkı vəziyyəti barədə məlumat verməniz xahiş edirik.**

- Bildiyimiz kimi, Azərbaycanda dövlət-din münasibətlərini Azərbaycan Respublikasının Konstitusiyası və qanunları tənzimləyir. Azərbaycanın seçdiyi dünyəvi dövlət modelinə uyğun olaraq ölkəmizdə dövlət-din münasibətləri qanun çərçivəsində tənzimlənir. Azərbaycanda dövlət dinin işlərinə müdaxilə etmir, vicdan azadlığı təmin olunur, insanların öz dini inanclarını sərbəst icra etmələrinə hər cür şərait yaradılır. Dövlət həm də insanları hər hansı dini inanca zorla yönəltməyin qarşını alır. Dünyəvilik dövlətin dini himayə etməsini də inkar etmir. Dövlət dinə kömək edir, məscidlər, kilsələr, sinaqoqlar tikilir, bərpa olunur. Azərbaycanda dövlət-din münasibətləri dünyəvilik prinsipləri üzərində qurulub. Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətləri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə önəmli yerlərdən birini tutur. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Zəngin mədəni-mənəvi irsi, çoxəsrlik tolerantlıq ənənələri olan Azərbaycan həm də nümunəvi dövlət-din münasibətləri modelinə malikdir.

*...dindən istifadə edib kimlərsə ictimai-siyasi sabitliyi pozmağa cəhd edə bilməyəcək. Çünki Azərbaycan dövləti güclüdür. Dövlətin, iqtisadi, siyasi, mənəvi dayaqları güclüdür.*

**- Dini kadrların hazırlanması məsələsində hansı amillərə daha çox üstünlük verilməlidir?**

- Bu gün ölkəmizdə dini təhsil, din sahəsində kadrların hazırlanması ilə bağlı müəyyən dəyişikliklər edilməsinə ehtiyac var. Biz din xadimləri hazırlayan ali təhsil ocağımızın yüksək səviyyədə təminatına nail olmalıyıq. Din xadimləri, din üzrə kadrlar yetişdirən ali təhsil ocağı dövlətin himayəsində olmalıdır. Din üzrə kadr hazırlığı sahəsində mərkəzləşmiş sistem yaradılmalıdır. Biz planlaşdırmalıyıq ki, din üzrə nə qədər kadra ehtiyacımız var. Azərbaycan bütün Qafqazda dini sahədə kadr hazırlayan mərkəzə çevrilməlidir. Dini kadrlarımız öz ölkəmizdə hazırlanan kadrlar olmalıdır. Din üzrə kadrı hazırlayacaq mərkəz elmi mərkəz olmalıdır. Bu mərkəz həm də din üzrə tədqiqatlar aparmalıdır. Azərbaycanda fəaliyyət göstərən kilsələr və sinaqoqlar üçün kadrları da tədricən həmin ali təhsil ocağında hazırlamaq olar. Hazırda dini kadrların hazırlanmasında mövcud olan bəzi boşluqlar müəyyən çətinliklər yaradır. Bu məsələnin həlli konseptual şəkildə həyata keçirilməlidir.

**- Bu yaxınlarda ABŞ-ın Beynəlxalq Din Azadlığı üzrə Komissiyasının dünyada din azadlığı haqqında illik hesabatında Azərbaycanla bağlı bəzi qərəzli fikirlər də yer alıb. Buna münasibətiniz.**

- Həmin hesabatda Azərbaycandakı dini durumla bağlı yer alan məlumatlar təbii ki, qərəzli xarakter daşıyır. Bu məlumatların doğru olmadığını, bütövlükdə Azərbaycandakı mövcud dini durumu ehtiva etmədiyini qarşı tərəfin diqqətinə çatdırmışıq. Bildirmişik ki, bu cür məruzələr hazırlanarkən yaxşı olar ki, həmin məruzələri hazırlayanlar Azərbaycana gələrək ölkəmizdəki dini vəziyyəti öz gözləri ilə görsünlər, söhbətlər aparsınlar. Mətbuatda yayılmış yanlış məlumatdan, xüsusilə ölkəmizi qaralama kampaniyasına yönəlmiş dezinformasiyadan istifadə etməsinlər. Biz öz fikirlərimizi çatdırmışıq. Bizim fikirlərimizlə razılaşırlar.

Azərbaycandakı tolerantlıq örnək olduğu halda dini durumla bağlı belə yanlış informasiyalar yaymaq nə dərəcədə məntiqəuyğundur? Azərbaycanda heç bir dini qrupa qarşı təzyiq olmayıb. Hər hansı bir tədbir görülsə belə bu, yalnız qanuna uyğun şəkildə həyata keçirilib. Bəzi xristian dini qruplaşmaları var ki, onların fəaliyyətinə heç xristian ölkələrində icazə verilmir. Onlar qeyri-ənənəvi xristian qrupları sayılaraq rədd edilirsə, həmin ölkələrdə insanlar arasında nifaqa çağıran, irqi ayrı-seçkiliyi təşviq edən bu cür dağıdıcı qrupların fəaliyyəti qanunla qadağan edilirsə, əlbəttə, biz də qapılarımızı onlara aça bilmərik. İslam ölkələrində də bəzi radikal qruplar var ki, onlara qarşı mübarizə aparıldığı halda biz qapılarımızı onların üzünə aça bilmərik. Bizim siyasətimiz dövlətimizin milli maraqlarına söykənir. Bizim maraqlarımıza zidd olan nə varsa Azərbaycan xalqının arzusunu ifadə edərək onun qarşısında durmalıyıq. Milli maraqlarımıza toxunulan nə varsa ona qarşı çıxmalıyıq.

# REGİONAL KONFRANSLAR

## Bərdədə

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Bərdədə rayon İcra Hakimiyyətinin dəstəyi ilə iyunun 2-də "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda iki günlük konfrans keçirib. Tədbirdə Ağdam və Bərdə rayonlarında fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.




Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev İslam dininin dəyərlərinin qorunması məqsədi ilə keçirilən maarifləndirmə tədbirinin əhəmiyyətini qeyd edib, xalqımızın əsrlər boyu milli-mənəvi və dini dəyərlərini, birgəyaşayış mühitini qoruyub saxladığını, tolerantlıq məkanı Azərbaycanda bütün dinlərin nümayəndələrinin azad, sülh, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını deyib.

Tədbirdə çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət-din münasibətlərindən, Konstitusiyada təsbit edilmiş vicdan azadlığından, ölkəmizdə hökm sürən tolerantlıq mühitindən, ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərindən danışıb. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan dünyəvi, hüquqi və demokratik dövlətdir. Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Dövlət və din ayrı olsa da, dövlət dini himayə edir. Məscidlər, kilsə və sinaqoqlar inşa olunur və təmir edilir. Dini icmalara maddi yardımlar olunur.

Komitə sədri diqqəti dünyada din pərdəsi adı altında aparılan münaqişələrə çəkərək bildirib ki, müxtəlif ölkələrdə İslamı parçalamaq üçün dini cərəyanlar yaradılıb. İslamı siyasiləşdirərək, daxildə qarışıqlıq yaratmaqla, onun gözdən salınmasına, terrorla əlaqələndirilməsinə yönələn siyasət həyata keçirilir. Belə bir şəraitdə dini maarifləndirmə tədbirlərinə daha diqqətlə yanaşılmalıdır.

Milli Məclisin deputatları Gövhər Baxşəliyeva və Zahid Oruc, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qarabağ bölgəsi üzrə səlahiyyətli nümayəndəsi hacı Ramazan Hüseynov çıxışlarında dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən danışıblar. Bildirilib ki, ənənəvi İslam dəyərlərinin və tolerantlıq mühitinin qorunması, gənclərimizin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirinə düşməməsi üçün cəmiyyətdə dini maariflənmə işləri lazımi səviyyədə aparılmalıdır. İslama, dinə müasir baxışlarla, elmi cəhətdən yanaşılmalıdır.

"Dini maarifləndirmə və milli mənəvi dəyərlərin təbliği" mövzusunda davam edən plenar iclasda "Dini radikalizm və onunla mübarizə üsulları", "Zərərli dini cərəyanlar və onların təbliğat metodları" mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.

Konfransın ilk iş günü başa çatdıqdan sonra Komitə sədri M.Qurbanlı Bərdədəki İmamzadə kompleksində olub, "Cümə" məscidində dindarlarla görüşüb, məscidə kitablar hədiyyə edib.

Regional konfrans işini iyunun 3-də "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda plenar iclasla davam etdirib.

---

## Tərtərdə



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi ilə iyunun 8-də Tərtər şəhərində keçirdiyi konfransda din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər iştirak ediblər.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ölkəmizdə milli-mənəvi dəyərlərə, tarixi-dini abidələrə, eləcə də dini icmaların və din xadimlərinin fəaliyyətinə yüksək qayğı göstərildiyini bildirib, rayonda dini maarifçilik sahəsində, vətəndaşların radikal dini qruplaşmaların, qeyri-ənənəvi təriqətlərin təsirinə düşməməsi, mövhumata və xurafata meyillənməməsi üçün mütəmadi işlərin aparıldığını diqqətə çatdırıb.

Xalqımızın əsrlər boyu formalaşdırdığı milli-mənəvi dəyərlərdən və onun qorunmasından, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasından bəhs edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətlendiyini, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hazırda ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəyə çatdığını vurğulayıb.

Komitə sədri dünyada din pərdəsi adı altında aparılan münaqişələrdən bəhs edərkən bildirib ki, bu gün İslam dininin genişlənməsindən narahat olan qüvvələr var. Bu qüvvələr tarixən İslam dininin bütövlüyünü pozmağa, onu parçalamağa çalışıblar. Bu radikal qruplar İslamın gözdən salınmasına, onun zəifləndilməsinə yönəldilib. Azərbaycanın inkişafını, tərəqqisini gözü götürməyən bəzi dairələr din vasitəsilə ölkəmizdə təxribat törətmək istəyirlər. Lakin onlar məqsədlərinə çata bilməyəcəklər. Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu mübarizədə ən səmərəli vasitə maarifləndirmə işidir. Bu işdə tək hüquq mühafizə orqanları və din xadimləri deyil, eləcə də ziyalılar, ağsaqqallar, müəllimlər fəal olmalıdırlar.

QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlət müstəqilliyimizin və milli-mənəvi dəyərlərimizin qorunmasındakı rolundan danışıb. Bildirib ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərə qiymət yüksək səviyyədədir. Sovetlər dönəmində Azərbaycanda 17 məscid mövcud idisə, müstəqil Azərbaycan 2000-dən artıq ibadət ocağına sahibdir.

Azərbaycanda hökm sürən tolerantlıq mühitinə diqqəti çəkən QMİ-nin sədri qeyd edib ki, ölkəmizdə ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq hökm sürür. Azərbaycandakı tolerantlıq bütün dünyaya nümunədir.

Akademik Vasim Məmmədəliyev və rayon ziyalıları mövzu ilə bağlı çıxış edərək fikirlərini bildiriblər.

Konfrans başa çatdıqdan sonra QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə və DQİDK-nin sədri Mübariz Qurbanlı Tərtər şəhər "Cümə" məscidində dindarlarla görüşərək məscidə kitablar hədiyyə ediblər, Bərdədəki İmamzadə kompleksində olublar. Qonaqlara Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Dini abidələrdə tarixin izləri" proqramı çərçivəsində burada aparılan abadlıq, kompleksin tarixinin öyrənilməsi, təbliği layihəsi barədə məlumat verilib. Bildirilib ki, layihə çərçivəsində abidənin ümumi görünüşünə heç bir müdaxilə etmədən yerli ustalar tərəfindən abadlıq işləri aparılıb. XVII-XIX əsrlərə aid ərəb və fars dillərində qəbirüstü yazılar və daş kitabənin mətni dilimizə çevrilərək müasir əlifba ilə dəmir lövhəyə köçürülüb. Türbənin günbəz tipli dam örtüyünün sıradan çıxmasının qarşısı alınıb, həyətdə daş piltələrdən meydança, çaydaşından səkilər və bulaq düzəldilib, yaşıllıq salınıb.

Qeyd edilib ki, Azərbaycan Milli Elmlər Akademiyası və Bərdə Rayon İcra Hakimiyyəti ilə birlikdə burada iki elmi konfrans və dəyirmi masa keçirilib. Həmçinin "Bərdə və Bərdə İmamzadəsi" sənədli filmi çəkilib, eyni adda kitab nəşrə hazırlanıb. Bilik Fondu tərəfindən "Məscid kitabxanası" layihəsi çərçivəsində İmamzadə kompleksinə 200 adda kitab hədiyyə edilib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İmamzadə kompleksində aparılan elmi tədqiqat və abadlıq işlərini yüksək qiymətləndiriblər.

# REGİONAL KONFRANSLAR



## Salyanda

İyunun 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Salyan Rayon İcra Hakimiyyəti ilə birgə keçirdiyi "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfransda Salyan və Neftçala rayonlarında fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, xatirəsini ehtiramla anıblar.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycan Prezidentinin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını qeyd edərək, zəngin multikulturalizm ənənələrinin qorunub saxlanılması, təbliği və təşkili istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, ümumbəşəri dəyərlərə münasibətdə zəngin təcrübəyə malik olan İslamın milli-mənəvi dəyərlərimizin formalaşmasındakı rolundan danışıb.

Geosiyasi maraqların getdikcə şiddətlənməsinin təhlükəli həddə çatdığını, belə bir şəraitdə dünyada radikalizm meyillərinin güclənərək dəhşətli nəticələrə səbəb olduğunu vurğulayan Komitə sədri bildirib ki, bu gün bəzi müsəlman ölkələrində baş verən hadisələr, silahlı münaqişələr məhz geosiyasi maraqların toqquşmasından irəli gəlir. Ölkəmizdə mövcud olan dini tolerantlıq və dövlət-din münasibətləri digər ölkələr üçün nümunədir. Bu münasibətlər uzun illərdən bəri zamanın sınağından çıxaraq günümüzədək gəlib, keçmişimizdən bizə yadigar qalıb və ölkəmizdə aparılan düzgün daxili və xarici siyasət nəticəsində getdikcə inkişaf etməkdədir. Bu ənənəni qoruyub saxlamaq hər kəsin, xüsusilə də din xadimlərinin, ziyalıların və gənclərin mənəvi borcudur.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimov, Milli Məclisin deputatları Fəzail Ağamalı və Əliağa Hüseynov konfransda çıxış edərək, dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsində belə keyfiyyətlərin əhəmiyyətindən danışıblar.

Konfrans başa çatdıqdan sonra Komitə sədri Mübariz Qurbanlı Salyandakı "Cümə" məscidində olub, dindarlarla görüşüb və onlara dini kitablar bağışlayıb.

İyunun 10-da konfrans işini panellər formatında davam etdirib. "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda keçirilən paneldə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Yeni Azərbaycan Partiyasının Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, eləcə də rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər. Çıxışlarda gənclərin radikal qüvvələrin təsiri altına düşməməsi üçün dini maarifləndirmə işinin aparılmasının, gənclərə və yeniyetmələrə milli-mənəvi dəyərlərimizin aşılanmasının vacibliyi vurğulanıb.



## Tovuzda

İyunun 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Tovuz Rayon İcra Hakimiyyəti ilə birgə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda keçirdiyi tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov, Tovuz və Ağstafa rayonlarından olan dini icmaların rəhbərləri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Tovuz şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə tər çiçək dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycan Prezidentinin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını vurğulayaraq, zəngin multikulturalizm ənənələrinin qorunub saxlanılması, təbliği və təşkili istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. O, ümumbəşəri dəyərlərə münasibətdə zəngin təcrübəyə malik Azərbaycanda İslamın tarixi, milli-mənəvi dəyərlərimizdə yeri, bu dəyərlərin yad təsirlərdən qorunması ilə əlaqədar məsələləri diqqətə çatdırıb. Bildirilib ki, bu gün bəzi müsəlman ölkələrində baş verən hadisələr, silahlı münaqişələr geosiyasi maraqların toqquşmasından irəli gəlir. Bəzi qüvvələr İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu nüfuzdan salmağa çalışır, terrorla əlaqələndirmək istəyirlər. Mübariz Qurbanlı bu cür hallara qarşı birgə mübarizənin əhəmiyyətini, bu sahədə maarifləndirmənin zəruri olduğunu vurğulayıb.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Nəriman İbayev konfransda çıxış edərək, dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən danışıblar.

Daha sonra Komitə sədrinin müavini Səyavuş Heydərovun moderatorluğu ilə plenar iclas işə başlayıb. Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov "Dini radikalizm və onunla mübarizə üsulları", dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər" mövzularında çıxış ediblər.

Konfrans başa çatdıqdan sonra Komitə sədri Mübariz Qurbanlı Tovuz şəhərində yerləşən məsciddə olub, dindarlarla görüşüb və onlara dini kitablar bağışlayıb.

Regional konfrans işini iyunun 24-də DQDİK sədrinin müavini Səyavuş Heydərovun moderatorluğu ilə "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda plenar iclasla davam etdirib.

# "İNSAN HÜQUQLARI AYLIĞI" ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR

## Sabirabadda

İyunun 8-də Sabirabad rayonunda "İnsan Hüquq və Azadlıqlarının təmin edilməsi müstəqil Azərbaycan dövlətinin ən ali məqsədidir" mövzusunda tədbir keçirilib. Tədbirdə dini icma sədrləri, Qafqaz Müsəlmanları İdarəsinin Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Ağakərim Sadıqov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov iştirak ediblər.

İnsan hüquqlarının müasir dünyamızın bütün demokratik ölkələri üçün prioritet mövzusu olduğunu deyən C.Bəhrəmov vurğulayıb ki, müstəqil Azərbaycanda da insan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsi və daha da genişləndirilməsi dövlətin ən ali məqsədidir.




Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi A.Sadıqov Azərbaycan dövlətinin dinə və dindarlara qayğısından söz açaraq Azərbaycan dövlətinin daha da güclənməsi üçün hər bir vətəndaşın bu sahədə əlindən gələni etməli olduğunu söyləyib, insan hüquq və azadlaqlarının müdafiəsi sahəsində dövlətin həyata keçirtdiyi siyasətə dəstəyin zəruriliyini diqqətə çatdırıb.

Sonra çıxış edən dini icma sədrləri Azərbaycanda dövlət-din münasibətlərinin ən yüksək səviyyədə inkişafına görə ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur və müvəkkilin təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda "İnsan hüquqları aylığı" keçirilir.

## Şirvanda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan şəhər şöbəsinin təşkilatçılığı ilə Şirvan şəhər 18 saylı tam orta məktəbdə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin adət-ənənələrimizə, tarixi irsimizə, milli-mənəvi dəyərlərimizə önəm verdiyi, bu siyasətin Prezident İLham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsinin şöbə müdiri Aydın Alıyev bildirib ki, ölkəmizdə dini ayinlərin həyata keçirilməsində heç bir problem yoxdur, ancaq bu demokratiyadan yararlanmaq istəyən bəzi dairələr dini radikalizmi təbliğ edir və insanları çaşdıraraq öz ətraflarına toplamağa cəhd göstərirlər. A.Alıyev bu cür zərərli meyillərə qarşı birgə mübarizə yollarından danışıb.

Tədbirdə çıxış edən rayon ziyalıları respublikamızda dövlət-din münasibətlərinin düzgün təbliği, saf əqidəli dindarların hüquq və azadlıqlarının qorunması üçün lazımi tədbirlərin görülməsindən danışaraq, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

# Rəsmi təqvimdən fərqli dini təqvimlər çap edərək yayanlar məsuliyyətə cəlb oluna bilərlər

*Dini qurumlarla iş üzrə şöbənin müdiri Əliheydər Zülfüqarov son günlər müzakirə mövzusu olan müxtəlif "dini təqvim"lərlə bağlı açıqlama verib.*

Müstəqil Azərbaycan Respublikası dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində ciddi uğurlara imza atmışdır. Məhz bu uğurun nəticəsidir ki, dövlət və dini icmalar arasında münasibətlər yüksək səviyyədə qurulub, qarşılıqlı əlaqələr qanun çərçivəsində inkişaf etdirilir, müxtəlif dini konfessiyalar arasında tolerantlıq münasibətləri mövcuddur.

Buna baxmayaraq, zaman-zaman dindən müəyyən maraqlar üçün istifadə edən bəzi qruplar ölkəmizdəki ənənəvi dini dəyərlərlə uyğunluq təşkil etməyən, dindarlar arasında fikir ayrılığı yaradaraq vəhdət və həmrəyliyə xələl gətirən tədbirlər görməklə öz məkrli məqsədlərinə nail olmaq istəyirlər.

Təcrübə göstərir ki, xüsusilə ölkə əhəmiyyətli tədbirlərin keçirildiyi vaxtlarda ictimai sabitliyi pozmaq üçün bəhanə arayan belə qruplar xüsusilə aktivləşirlər. Bu baxımdan Ramazan ayında müxtəlif "dini təqvim"lər hazırlayaraq dindar kontingent arasında yayanlar çaşqınlıq yaratmaq məqsədi güdürlər.

Qeyd edək ki, əhalinin 96%-ni müsəlmanlar təşkil edən Azərbaycan Respublikasında bütün İslam icmaları dini mərkəz kimi Qafqaz Müsəlmanları İdarəsində birləşirlər. Ona görə də mərkəzləri və havadarları xaricdə yerləşən bəzi müsəlman dini qrupların bu və ya digər şəkildə Azərbaycan vətəndaşlarına dini-ideoloji kontekstdə müdaxilə etmələri qəbul edilməzdir.

Hər il olduğu kimi, Ramazan ayı öncəsi Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-dini Şurası ölkə ərazisində Ramazan ayının başlanması və bayram günlərinin vaxtı ilə əlaqədar fətva verir, ay boyu icra olunacaq ibadətlərin vaxtları ilə bağlı xüsusi təqvim hazırlayır ki, məhz bu təqvim Azərbaycan ərazisi üçün dəqiq hesablanmışdır. Belə ki, həmin təqvim Qafqaz Müsəlmanları İdarəsi ilə Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birgə astronomik hesablamalara uyğun tərtib edilir. Ölkə müsəlmanları ay boyunca bu cədvələ riayət etməlidirlər.

Lakin təəssüf ki, vətəndaşlarımız arasında müxtəlif müsəlman ölkələrində hazırlanan təqvimlərə etibar edənlər də vardır. Qeyd edək ki, "xarici təqvimlər"də çox vaxt qeyri-dəqiqlik və yerli vaxtla uyğunsuzluq olduğundan dindar vətəndaşlarımız arasında çaşqınlıq yaranır, nəticədə bir sıra xoşagəlməz söz-söhbətlər baş qaldırır. Hətta bəzi dindarlar Ramazan bayramını Qafqaz Müsəlmanları İdarəsinin təklifi əsasında dövlətin rəsmi təyin etdiyi gün yox, bu və ya digər təqvimlərə uyğun keçirirlər ki, bu da ölkədəki müsəlmanlar arasında birliyə, həmrəyliyə ciddi zərbə vurur.

Dindarlarımız yaxşı bilirlər ki, Ramazan ayının xüsusiyyəti və ümumiyyətlə, müsəlman ümmətinin ən üstün keyfiyyəti elliklə, vəhdət içində icra edilən ayinlərin dərəcəsinin Uca Yaradanın dərgahında daha fəzilətli olmasıdır. Deməli, müsəlmanların parçalanması, xüsusilə on bir ayın sultanı olan Ramazanda belə halların baş verməsi təkcə təəssüf doğurmur, elə şəri baxımdan da günah sayılır. Uca Yaradan Qurani-Kərimin Ali-İmran surəsinin 103-cü ayəsində buyurur: "Hamılıqla Allahın ipinə (dinə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!".

Ona görə də bir daha vurğulayırıq ki, vətəndaşlarımız Qafqaz Müsəlmanları İdarəsi ilə AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının birgə hazırladığı öz təqvimimizdən istifadə etsinlər, mənbəyi məlum olmayan təqvimlərdən uzaq olsunlar. Çünki bu həssas məsələ təkcə dini deyil, elə vahid cəmiyyət kimi milli vəhdətimizin və həmrəyliyimizin vacib təzahürüdür.

Eyni zamanda, xəbərdar edirik ki, Qafqaz Müsəlmanları İdarəsinin rəsmi təqvimindən başqa müxtəlif dini təqvimlər çap edərək yayanlar qanunla məsuliyyətə cəlb oluna bilərlər. Dövlət Komitəsinin müvafiq şöbələri Ramazan ayı boyunca dini ibadət yerlərində müvafiq monitorinqlər aparacaq, dini ayinləri Qafqaz Müsəlmanları İdarəsinin rəsmi təqviminə uyğun icra etməyən icmalar və din xadimləri barəsində hüquqi müstəvidə ciddi ölçü götürüləcək.

Bütün müsəlmanlar üçün birlik və qardaşlıq rəmzi sayılan Müqəddəs Ramazan ayında nifaq və təfriqə halları ilə üzləşməmək üçün vahid rəsmi təqvimdən istifadə məsələsində dindarlarımızın daha həssas davranmalarını, neqativ hallarla üzləşdikləri təqdirdə dərhal məlumat vermələrini xahiş edirik.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mətbuat Xidməti:

# Bundestaqın qətnaməsi qərəzlidir

**İyunun 12-də Almaniya Bundestaqında ölkəmizə qarşı qərəzli, böhtan xarakterli, ictimai-siyasi sabitliyə, inkişafa və mövcud tolerantlıq mühitinə kölgə salmağa cəhd edən qətnamə qəbul olunub. Qətnamədə ölkəmizdə din azadlığının məhdudlaşdırıldığı, qeyri-islam dini icmalara qarşı ayrı-seçkilik və diskriminasiya hallarına yol verildiyi iddia olunur. Məqsədyönlü və qərəzli xarakter daşıyan, heç bir əsası olmayan, cəfəngiyat dolu bu sənədin qəbul olunması iki ölkə arasında münasibətlərə zərər gətirməklə yanaşı, Azərbaycan ictimaiyyəti tərəfindən də ciddi etirazla qarşılanıb.**

Bildirmək istəyirik ki, Azərbaycanda dini etiqad azadlığı Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla təsbit olunub. Dövlətin din siyasəti bütün dini konfessiyalara bərabər şəraitin yaradılması, dini icmalara və ibadət yerlərinə dövlət qayğısı əsasında formalaşıb. Azərbaycan dünyəvi dövlət olsa da, dövlət tərəfindən daima dinə xüsusi diqqət və qayğı göstərilir. Məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da təmir-bərpa edilir, yeniləri tikilərək insanların istifadəsinə verilir. Hər il dövlət başçısı tərəfindən Prezidentin Ehtiyat Fondundan dini icmaların fəaliyyəti üçün maliyyə vəsaiti ayrılır. Bu il üçün də ayrılmış həmin vəsaitin 400 min manatı qeyri-islam dini icmalarına verilmişdir.

Azərbaycan xalqı tarixən tolerant və multikultural xalqdır. Ölkəmizdə heç bir tarixi dövrdə dini, irqi və etnik zəmində qarşıdurma halları baş verməyib. Azərbaycanın tolerantlığı, dövlətin multikulturalizm siyasəti bütün dünyada nümunə və müsbət təcrübə kimi qəbul edilir. Dini etiqadından asılı olmayaraq, qanunvericiliyin tələblərinə cavab verən bütün İslam və qeyri-islam dini icmalar rəsmi dövlət qeydiyyatına alınır və sərbəst şəkildə fəaliyyət göstərir.

Almaniya Bundestaqının Azərbaycana bu cür mənfi münasibət göstərməsi, ölkəmizi ayrı-seçkilikdə və diskriminasiyaya yol verməkdə ittiham etməsi qəbuledilməzdir. Belə ki, Almaniyada son illər geniş vüsət alan islamafobiya prosesləri etnik və dini zəmində toqquşmalarla müşayiət olunur. Bu proses indi də davam etməkdədir. Almaniya 2010-cu ildə rəsmi şəkildə multikulturalizmdən imtina edərək, bu gün yaşanan İslam əleyhinə hərəkatlara və islamafobiyanın geniş yayılmasına rəvac verib. Yaxşı olardı ki, Almaniya Bundestaqında Azərbaycanla bağlı məsələni müzakirə edən bəzi deputatlar və ayrı-ayrı siyasi dairələr öz ölkələrindəki islamafobiya, antiislam hərəkatını, dini və etnik ayrı-seçkiliyin səbəblərini və fəsadlarını müzakirə edərək qiymətləndirsinlər.

Bu cür neqativ halların yaşandığı, insanların dövlət səviyyəsində dini ayrı-seçkiliyə məruz qaldığı cəmiyyətin ali qanunverici orqanının ölkəmizə dair insan haqlarının pozulmasını iddia etməsini və ölkəmiz haqqında əsassız ittihamlar səsləndirməsini qəti şəkildə pisləyirik.

Azərbaycan sürətlə inkişaf edən dövlətdir. Bu inkişafa, tərəqqiyə kölgə salmaq istəyən, ölkəmiz haqqında beynəlxalq ictimaiyyətdə mənfi rəy formalaşdırmağa çalışan heç bir qüvvə bu istəyinə nail ola bilməyəcək.

# Multikulturalizm Mərkəzində "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kitabının müzakirəsi keçirilib

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kitabının müzakirəsi keçirilib.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor Azad Məmmədov araşdırmaçı-jurnalist Niyaz Niftiyevin müəllifi olduğu kitabın Azərbaycanın multikulturalizm siyasətinə töhfə olduğunu söyləyib. Tədbirin moderatoru, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfov bildirib ki, müzakirənin məqsədi alimlərin kitabla bağlı maraqlı fikirlərini öyrənməkdir.

Müəllif Niyaz Niftiyev kitabın ön söz, giriş, nəticə, xülasə hissələrindən və 12 bölmədən ibarət olduğunu söyləyib. Bildirib ki, kitabda həm əcnəbi, həm də yerli alimlərin azlıq anlayışına münasibəti dərc edilib, bir neçə ölkədə multikulturalizm tərcübəsi öyrənilib, azərbaycançılıq ideologiyasının hansı şəraitdə yaranması və bu ideologiyanın milli birliyin təminatında rolu barədə məlumat əks olunub.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin baş məsləhətçisi Həcər Verdiyeva, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri, professor Sakit Hüseynov, İnstitutun şöbə müdiri, professor Əli Abbasov, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov, Bakı Slavyan Universitetinin multikulturalizm kafedrasının müdiri, dosent Aytən Qəhrəmanova, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitika şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nəriman Qasımzadə, Azərbaycan Dillər Universitetinin professoru Jalə Qəribova, Bakı Slavyan Universitetinin dosenti Şirinbəy Əliyev, Azərbaycan Müəllimlər İnstitutunun dosenti Şahrza Ağayev, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru Radif Mustafayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitika şöbəsinin baş məsləhətçiləri Rəşad İlyasov və Rəvan Həsənov müzakirələrdə çıxış edərək kitabın müsbət məziyyətləri haqqında danışmaqla yanaşı, irad və təkliflərini də bildiriblər.

# Ramazan fəziləti



**Budur, ruhumuzun və bədənimizin təmizlənməsi üçün fürsət olan Ramazan ayı qapımızı yenə döydü. Oruc tutmağın mahiyyəti ac qalmaq deyil, maddi aləmə uyğun yaradılan insanın özünü qeyb (mələklər) aləminə uyğunlaşdıra bilməsi üçün verilən əmrdir, hədiyyədir. Çünki onu qavrayan ruh da, bədən də təmizlənər, hüzura qovuşar.**

Ramazan ayı ibadətlərin, yardımlaşmanın, bağışlanmanın artdığı, nəfslərin tərbiyə edildiyi, kasıbların yedirilib-içirildiyi, savab və mükafatın qazanıldığı aydır. Allahın verdiyi nemətlərə edilən şükürlərdən biri də bu ayda oruc tutmaqdır.

Orucun və Ramazan ayının fəzilətinə dair çox sayda hədisi-şərif var. Həzrət Peyğəmbərdən (s) rəvayət edilir ki: "Kim Ramazan orucunu fərziyyətinə inanaraq və savabına nail olmaq üçün tutarsa, keçmiş günahları bağışlanar. Hər kim Qədr gecəsini savabına inanaraq əhya edərsə (bütün gecəni ibadətlə keçirərsə), keçmiş günahları bağışlanar" ("Səhihi-Buxari").

Bu hədisi-şərifdə möminlər üçün böyük müjdələr var. Çünki insan günah işlədəcək mahiyyətlə yaradılıb. Onu hər cür üstünlüyü və çatışmazlıqları ilə yaradan Allah günahları bağışlayacaq səbəbləri də yaradıb. Bunlar Müqəddəs Kitabımızın surə və ayələrində, hədislərdə göstərilib. Günahların bağışlanmasının ən böyük vəsiləsi imandır, tövbədir. Bəzi zaman və məkanlar da günahların bağışlanmasına səbəb ola bilir. Ramazan ayı və Həcc ziyarəti kimi vacib ibadətlər bu qəbildən hesab olunur.

Ramazan ayının əhəmiyyəti Allah Rəsulunun (s) bu hədisində daha aydın görünür: "Əgər bəndə Ramazan ayındakı üstünlükləri bilsəydi, bütün ilin Ramazan olmasını istəyərdi"(Təbərani).

"Həşr" surəsinin 19-cu ayəsində buyurulur: "Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin!.." Həqiqətən, müasir dünya istər fərd, istərsə də cəmiyyət olaraq bu gün Allahı unutmuş görünür. Başqa sözlə, bəşər övladı həyatı boyu Allah yoxmuş kimi davrandığına, dərin iman hissinin verdiyi məsuliyyət şüuruyla yaşamadığına görə özünü, öz qurtuluşunu, bir növ, "unutmuş" vəziyyətdədir. Son illər dünyada qlobal səviyyədə yaşanan terror hadisələri, haqsız işğallar və döyüşlər, hətta qlobal istiləşmə kimi qorxulu hadisələr açıq şəkildə göstərir ki, bəşər övladının doymaq bilməyən ehtirasları uğrunda törətdiyi əməllər sonda bumeranq effekti ilə yenə onun özünü vurur.

Odur ki, Ramazan və orucun bizə verdiyi ən böyük fürsətlərdən biri qəflətimizin, qüsurlarımızın fərqinə vararaq qəti şəkildə Yaradana yönəlmək və nəfsimizin dağıdıcı istəklərinə görə deyil, Allahın iradəsinə uyğun yaşamaqdır. Həmçinin ayrı düşdüyümüz ruh dünyamıza, gerçək mənliyimizə qayıdaraq özümüzü, daxili dünyamızı, əxlaqımızı və vicdanımızı ilahi gözəlliklərlə zənginləşdirməkdir. Çox güman ki, "...qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!" (Rad, 28) ayəsinin demək istədiyi də budur. Həyat təcrübəmiz də onu göstərir ki, bir çox insan bəzi pis əməllərindən əl çəkib, gözəl vərdişlər inkişaf etdirmək üçün Ramazan ayını bir vəsilə olaraq dəyərləndirir və bundan sonrakı həyatını yeni nizama salır. Bir çox müsəlmanın pis vərdişlərini Ramazanda tərk etdiyini, bir çox günahından Ramazanda tövbə və istiğfar etdiyini, bəzi dini vəzifələrini yerinə yetirməyə məhz Ramazanda başladığını, qısası, bu ayı özü üçün yeni milad kimi dəyərləndirdiyini də bilirik.

Əbu Hüreyrə Peyğəmbərdən (s) rəvayət edir ki: "Adəm oğlunun bütün əməllərinə qarşılıq veriləcək savab on mislindən yeddi yüz mislinə qədər artır. Allah-Təala buyurdu ki: Oruc istisnadır! Oruc mənim üçündür, onun qarşılığını ancaq mən verəcəyəm. Oruclu adam nəfsani arzularını və yeməyini mənim rizam üçün tərk edər. Oruclu adam üçün iki cür rahatlıq vardır: biri iftar anındakı rahatlıq, digəri Rəbbinə qovuşduğu zamankı rahatlıqdır. Oruclunun ağız qoxusu Allah qatında müşk qoxusundan da xoşdur"("Səhihi-Müslim").

Ütbə ibn Abdullah Həzrət Məhəmməddən (s) belə nəql edir: "Kim Allah yolunda fərz orucu olaraq bir gün oruc tutarsa, Allah onu cəhənnəmdən yerlər və göylər arasındakı məsafə qədər uzaqlaşdırar" (Təbərani).

Sonda isə Rəsulullahın (s) Şaban ayının son günündə səhabələrə etdiyi müraciəti xatırlatmaq yerinə düşür. Rəvayət olunur ki, Həzrət Peyğəmbər (s) belə buyurub: "Ey insanlar! Böyük və mübarək bir ay sizi kölgəsi altına almışdır. Bu elə bir aydır ki, bu ayda min gecədən daha xeyirli bir gecə vardır. Elə bir aydır ki, Allah bu ayda oruc tutmağı fərz qıldı, gecələrində qalxıb ibadət etməyi nafilə qıldı. Bu ayda hər kim xeyir hərəkətlərindən biri ilə Allaha yaxınlaşırsa, Ramazan ayı xaricində fərz ibadət etmiş kimi savab qazanar. Bu ayda hər kim fərz bir ibadəti yerinə yetirərsə, Ramazan ayı xaricində yetmiş fərz yerinə yetirmiş kimi savab qazanar".

Ramazan ayı səbir ayıdır. Səbrin də savabı Cənnətdir. Ramazan ayı Allahın qullarını bağışladığı, möminin ruzisini artırdığı aydır. Bu ayda hər kim bir orucluya iftar verərsə, günahları bağışlanar, özü də Cəhənnəm alovundan azad olar, oruclu adamın savabından heç bir şey əskilməz, əksinə, tutduğu orucun savabı qədər savab qazanar.

## Ramazanda gündəlik dualar

**9-cu günün duası:** "İlahi, bu gün öz bol rəhmətini mənə nəsib et. Məni öz parlaq dəlillərinlə istiqamətləndir. Məni Sənin razılığına bais olan və hər cür xeyri özündə cəm edən əməllərə doğru çək. Məhəbbətinə and verirəm, ey şövqlülərin istəyi!"

**10-cu günün duası:** "İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən, Sənin nəzdində feyz və səadət tapanlardan, Sənin dərgahına yaxın olanlardan qərar ver. Ehsanına and verirəm, ey tələb edənlərin məqsədi!"

**11-ci günün duası:** "İlahi, bu gün ehsan etməyi mənə sevdir! Bu gün fisq və asilikdən məni ikrah etdir! Bu gün öz qəzəbini və cəhənnəm atəşini məndən uzaqlaşdır! Yardımına and verirəm, ey fəryad edənlərin dadına çatan!"

**12-ci günün duası:** "İlahi, bu gün günahlarımı gizlətmək və iffət bağışlamaqla məni zinətləndir. Bu gün mənə qənaət və kifayətcillik libasını geyindir. Məni bu gün ədalət və insafa vadar et. Bu gün məni bütün qorxduğum şeylərdən amanda saxla. İsmətinə and verirəm, ey qorxu içində olanların mühafizəçisi".

**13-cü günün duası:** "İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbrli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı".



**14-cü günün duası:** "İlahi, bu gün səhvlərimə görə mənə qəzəblənmə! Bu gün xətalarıma göz yum! Məni bəla və afətlərə hədəf etmə! İzzətinə and verirəm, ey müsəlmanlara izzət verən Allah!"

**15-ci günün duası:** "İlahi, bu gün qəlbində Allah xofu olan şəxslərə məxsus itaəti mənə nəsib et! Bu gün sinəmi təvazökarların tövbəsi ilə genişləndir! Əminliyinə and verirəm, ey qorxu əhlinə əminlik bəxş edən Allah!"

**16-cı günün duası:** "İlahi, bu gün yaxşı bəndələrin tayı olmağı mənə nəsib et! Məni pis adamlardan uzaqlaşdır! Bu gün mənə öz rəhmətinlə behişt qərargahında yer ver! Allahlığına and verirəm, ey aləmlərin Allahı".

**17-ci günün duası:** "İlahi, bu gün məni saleh əməllərə doğru yönəlt! Ehtiyac və arzularımı yerinə yetir! Ey izaha və suala ehtiyacsız, qəlblərdəkindən xəbərdar olan Allah! Məhəmmədə (s) və pak əhli-beytinə Sənin salavatın olsun".

**18-ci günün duası:** "İlahi, bu gün məni səhərlərin bərəkəti ilə oyat! Qəlbimi bu səhərlərin ziyası ilə işıqlat! Bədən üzvlərimi bu günün təsirinə tabe olmağa yönəlt! Nuruna and verirəm, ey ariflərin qəlbini nurlandıran Allah".

**19-cu günün duası:** "İlahi, bu günün bərəkəti ilə məni bəhrələndir! Xeyirliklərə doğru yolumu hamarla! Bu günün ehsanını qəbul etməkdən məni məhrum etmə! Ey aşkar haqq yolunun hidayətçisi".

**20-ci günün duası:** "İlahi, bu gün mənim üzümə cənnət qapılarını açıb, cəhənnəm qapılarını bağla! Bu gün məni Quran oxumaqda müvəffəq et! Ey möminlərin qəlbinə aramlıq bəxş edən Allah".

**21-ci günün duası:** "İlahi, bu gün Sənin razılığına bais olan əməllərə doğru mənə yol göstər! Bu gün şeytanın mənə hökmranlıq yollarını bağla! Cənnəti mənim üçün mənzil və aramgah et! Ey tələb əhlinin ehtiyacını yerinə yetirən Allah!"

**22-ci günün duası:** "İlahi, bu gün fəzl qapılarını üzümə aç, bərəkətlərini mənə göndər. Bu gün sənin razılığına bais olan işlərdə məni müvəffəq et, məni behiştin ən yaxşı yerində sakin et. Ey biçarələrin duasını qəbul edən Allah!"

**23-cü günün duası:** "İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyiblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!"

**24-cü günün duası:** "İlahi, bu gün Səni razı salan əməlləri Səndən istəyirəm. Səni qəzəbləndirən əməllərdən Sənə sığınıram. Sənə tabe olmaq və Sənə qarşı üsyan etməmək üçün yardım istəyirəm. Ey xahiş edənlərə bəxşiş verən Allah!"

**25-ci günün duası:** "İlahi, bu gün məni Sənin dostlarını sevənlərdən, Sənin düşmənlərinlə düşmən olanlardan qərar ver! Məni sonuncu Peyğəmbərinin (s) sünnəsinə əməl edənlərdən qərar ver! Ey peyğəmbərlərin qəlbinin hamisi olan Allah!"

**26-cı günün duası:** "İlahi, bu gün mənim səylərimi qiymətləndir, günahlarımı bağışla, əməlimi qəbul et, eyiblərimi ört! Ey bəndələrini hamıdan yaxşı eşidən Allah!"

**27-ci günün duası:** "İlahi, bu gün mənə Qədr gecəsinin fəzilətini nəsib et! Bu gün mənim işlərimi çətinlikdən asanlığa doğru yönəlt! Üzrümü qəbul et, günah yükünü üstümdən götür! Ey saleh bəndələrinə qarşı mehriban olan Allah!"

**28-ci günün duası:** "İlahi, bu gün mənə yaxşı əməllərin bəhrəsini bol et! İstəklərimi yerinə yetirməklə mənə kəramət göstər! Sənə yetmək üçün yollar içindən seçdiyim yolu özünə yaxın et! Ey israr edənlərin öz israrları ilə məşğul edə bilmədikləri Allah!"

**29-cu günün duası:** "İlahi, bu gün məni öz sonsuz rəhmətinlə əhatə et! Bu gün mənə qüvvət və ismət nəsib et! Ürəyimi töhmətçilik qaranlığından təmizlə! Ey mömin bəndələrinə rəhmli olan Allah!"

**30-cu günün duası:** "İlahi, bu gün mənim orucumu şükürlü və qəbul olunmuş qərar ver, öz bəyəndiyin və Peyğəmbərinin (s) bəyəndiyi oruclardan et! Elə oruclardan ki, xırdalıqları da əsas iman prinsiplərinə əsaslansın. Səni and verirəm ağamız Məhəmmədə (s) və pak nəslinə. Aləmlərin rəbbi olan Allaha həmd olsun".

# Ramazan bayramı- Yaradanın şəfqət ehsanı

Bayram sevinc və şənlikdir, insanları bir-birinə qaynayıb-qarışdıran, bir araya gətirən ən gözəl vəsilədir. Belə ki, bayramda özünün ən yüksək həddinə çatan yardımlaşma və hədiyyələşmə ruhu yalnız həyatda olanlarla məhdudlaşmaz, dünyadan köçüb məzarlarında bir "Fatihə" gözləyənlərə qədər uzanar. Onların bu diləyini yerinə yetirmək üçün möminlər bayramda qəbirləri ziyarət edər, yaxınlarının ruhlarına Quran, "Fatihə" və dualar oxuyaraq onları da sevindirərlər.

Ramazan bayramının möminlər arasında xüsusi yeri var. Çünki Ramazan bayramı hər gün tutulan orucun iftar vaxtındakı sevinci kimi, tutulan bir aylıq orucun ümumi iftar sevincini ifadə edər. Xüsusilə, Ramazanın yay mövsümünə təsadüf etdiyi isti günlərdə bir ay boyunca nəfslərinə oruc tutduran möminlər səbir imtahanını verərək mənəvi məsuliyyətdən xilas olmanın sevincini Ramazan bayramı ilə qeyd edərlər.

Dini ədəbiyyatda "Eydül-fitr" adlandırılan Ramazan bayramı hicrətin ikinci ilindən başlayaraq müsəlmanlara vacib buyurulmuşdur. Çünki Ramazan orucu da məhz bu vaxt Allah-Təala tərəfindən fərz qılınmışdır. Həzrət Peyğəmbərin (s) dövründə bu ayı orucla keçirən möminlər sonrakı ayın, yəni Şəvval ayının ilk üç gününü bayram təntənəsi ilə qeyd etmişlər. Bayram günlərindən əvvəl kasıblara fitrə sədəqəsi verildiyi üçün İslam ənənəsində bu bayrama "Fitrə bayramı" deyilmiş və bu ad sonralar dini-terminoloji mahiyyət qazanmışdır.

İslamın erkən dövrlərində Qurban bayramı kimi, Ramazan bayramı da müsəlman cəmiyyətinin bəzi qədim dinlərin təsir və izlərindən təmizlənməsində, İslam toplumunun özünəməxsusluq qazanaraq ümmət kimi formalaşmasında müstəsna rol oynamışdır.

Ramazan bayramı bayram namazının qılınması ilə başlayır. Çünki Allah Rəsulu (s) bayram günləri yerinə yetirilməli ilk işin namaz qılmaq olduğunu bildirmiş və ömrünün sonunadək bunu təbiq etmişdir. Bayram namazı gün çıxandan bir müddət sonra, yəni kərahət vaxtı keçəndən sonra camaatla qılınır. Bəzi alimlərə görə, bu namazı tək də icra etmək mümkündür. Müəyyən səbəblər ucbatından namazı birinci gün qıla bilməyənlər ikinci gün qıla bilərlər.

Bayram namazı azan oxunmadan və qamət gətirilmədən yerinə yetirilir. Cümə namazı kimi iki rükətdir. Lakin bu namazın özünəməxsus xüsusiyyətlərindən biri burada təkbir, yəni "Allahu-əkbər" ifadəsinin çoxluğudur. Təkbirlərin sayı və deyilmə yeri haqqında məzhəblər arasında müxtəlif fikirlər mövcuddur.

Həzrət Məhəmməd (s) bayram namazını, adətən, məsciddə deyil, "musalla" adlanan açıq, geniş və düz olan ərazidə qıldırarmış. Musallaya gedərkən Allah Rəsulunun (s) önündə Həzrət Bilal Həbəşi (r.a) mizraq aparar və namaz qıldıracağı yerə sancarmış. Peyğəmbər (s) mizrağın önündə bayram namazını qıldırdıqdan sonra ayağa qalxaraq müsəlmanlara xütbə deyər, bayramları təbrik edər, nəsihətlər verərmiş. Geri qayıdarkən isə Rəsulullah (s) gəldiyi yoldan deyil, başqa yoldan istifadə edərmiş. Bunu ona görə edirmiş ki, yolboyu daha çox  insanlarla rastlaşıb bayramlaşsın. Namazda gənc, yaşlı, hətta qadınlar da iştirak edərmiş.

Müsəlmanlara namaza gedərkən alçaq səslə təkbir gətirmək də tövsiyə olunmuşdur. Çünki bəşəriyyətin sonuncu Peyğəmbəri (s) bunu daim etmiş, səhabələri də onun bu sünnəsini yerinə yetirmişlər.

Allahın Elçisi (s) heç vaxt bayram namazına oruclu gəlməmişdir. O, bayram günü evdən çıxmamışdan qabaq, adətən, xurma yeyər və bununla da, oruclu olmadığını göstərərmiş. Bəzi İslam alimləri bu və buna bənzər rəvayətlərdən çıxış edərək, Ramazan bayramında oruclu olmağı məkruh, bəziləri isə hətta haram hesab etmişlər. Çünki Allahın ziyafət günləri sayılan bayramlarda oruclu olub cəmiyyətə qoşulmamaq, özünü kənara çəkmək həm Quranın məntiqinə, həm də dinin əsaslarına ziddir.

Ümumiyyətlə, Həzrət Peyğəmbər (s) bayramların xalq arasında və böyük coşğuyla qeyd edilməsinin tərəfdarı olmuşdur. Hədis mənbələrində Rəsulullahın (s) bayram günləri "Peyğəmbər" məscidində həbəşli bir qrup gəncin qılınc-qalxandan istifadə olunan folklor oyunları göstərməsinə icazə verdiyi, hətta xanımı Həzrət Aişə (r.a) ilə birgə bu oyunlara tamaşa etdiyi bildirilir ("Səhihi-Buxari").

Min dörd yüz illik tarixi dövr ərzində müsəlmanların bayram adət-ənənəsi, demək olar ki, heç dəyişməmişdir. Bütün müsəlman ölkələrində bayram gününə əvvəlcədən hazırlıq görülür, müxtəlif yemək və şirniyyatlar bişirilir. Təmizlik məqsədi ilə qüsl alınır, təmiz və gözəl paltarlar geyinilir, ətir vurulur. Adətə görə, qonşular, qohumlar bayramlaşır, hal-əhval tutulur, yoxsullara çoxlu sədəqə paylanılır. Bayram günlərində müəyyən çərçivədə əyləncəli oyunlar göstərmək də yaxşı qarşılanır.

Müsəlmanların həmin gün bayram əhvalı ilə bir-birinin evinə qonaq gedərək hədiyyələr verməsi və sevinc hisslərini paylaşması İslamın mütərəqqi ənənələrindən sayılır. Hazırda xüsusilə əhəmiyyətli məsələlərdən biri də xəstə, kimsəsiz və yaşlıların ziyarət edilməsi, bayramlarının təbrik olunmasıdır. Çünki belə insanlara mərhəmətlə qayğı göstərmək, kömək olmaq,  xüsusən də bayram günlərində ziyarət edərək kövrək qəlblərini sevindirmək dini baxımdan çox savab və təqdirəlayiq əməllərdəndir.

## Fitrə zəkatı

Hər müsəlman Ramazan ayının sonunda əsas ehtiyaclarından savayı, ən azı "nisab miqdarı" qədər mala sahibdirsə, yəni zəkat ödəmək iqtidarındadırsa, Fitrə zəkatı verməlidir. Malla edilən ibadətlərdən sayılan bu sədəqə növü hicrətin ikinci ilində (Ramazan ayında oruc tutmağın fərz qılındığı vaxtda) müsəlmanlara vacib buyurulmuşdur.

İnsan fitrətindəki xeyirxahlığı, yardımsevərliyi özündə ehtiva edən fitrə zəkatı yoxsulların ehtiyaclarını ödənilməsində, onların bayram sevincini daha yüksək əhval-ruhiyyə ilə qarşılamasında əhəmiyyətli rol oynayır.

Şəri baxımdan fitrənin verilmə vaxtının vaciblik hökmü Ramazan bayramının birinci günü, dan yerinin ağarması ilə başlasa da, bu mübarək ayın son on günü və ya bayramın sonrakı iki günü ərzində də verilə bilər. Lakin kasıb insanların bayram ehtiyaclarının təmin edilməsi baxımından bayramdan öncə verilməsi daha məqsədəuyğundur. Bayram gününədək fitrə verilməmişsə, bayram günlərində mütləq ödənilməlidir. Bəzi İslam alimləri hesab edirlər ki, vaxtında ödənilməyən fitrənin qəzası vardır, yəni bu ibadət sonrakı vaxtlarda mütləq yerinə yetirilməlidir.

Hədislərdə fitrənin miqdarı buğda, arpa, xurma və üzüm qurusunun 1 sa (təqribən 3 kq) çəkisi qədər müəyyənləşdirilmişdir. Mənbələrdə fitrənin əsasən yuxarıda sadalanan qida məhsullarından verilməsi o dövrün iqtisadi şərtlərindən və qida vərdişindən qaynaqlandığı göstərilmişdir. Ümumiyyətlə, Həzrət Peyğəmbər (s) və səhabə dönəmindəki icraatlara nəzər saldıqda, fitrənin miqdarı bir kasıbın yaşadığı cəmiyyətin orta statistik ailəsinin həyat standartı əsas götürülərək, bir günlük qidalanmağı nəzərdə tutduğunu aydın görərik. Dolayısı ilə müasir dövrdə fitrə bir şəxsin bir günlük normal qida tələbatını təmin edəcək qədər olmalıdır.

Fitrə qida məhsullarından verilə bildiyi kimi, dəyəri nağd pulla da ödənilə bilər. Ancaq bu məsələnin kasıbın xeyrinə həll edilməsi daha yaxşıdır.

Ramazanda müəyyən səbəblərə görə oruc tuta bilməyən şəxslər də fitrə verməlidirlər. Zəkat ödəyəcək mala sahib müsəlman kişi həm özü, həm kiçik yaşlı övladları, həm də xidmətində olan qulluqçularının yerinə fitrə verməlidir. Əgər xanımı və yetkinlik yaşına çatmış övladı "nisab miqdarı" mala sahibdirsə, fitrəni özləri ödəməlidirlər. Bundan başqa, heç kim valideynin də fitrəsini ödəmək məsuliyyətini daşımır. Çünki sədəqələrdə həm də ibadət mahiyyəti vardır və hər bir yetkin fərd onu özü icra etməlidir.

Fitrə zəkatı bir neçə kasıb arasında da paylanıla bilər. Aralarında evlilik və yaxın qohumluq əlaqəsi olan şəxslərin isə bir-birinə fitrə verməsi düzgün sayılmır. Dolayısı ilə fitrə şəri baxımdan zəkat verilməsi caiz olan insanlara verilməlidir.

Ramazan orucu tutmaq və fitrə zəkatı vermək bir-birindən asılı olmayan əməllərdir. İslama görə, imkanı olan hər bir müsəlmandan onlara əməl etmək istənilir. Lakin oruc tutub fitrə zəkatı verməyənin orucunun qəbul olunmadığı və yaxud oruc tutmayanların da fitrə zəkatı verməyə borclu olmadığını iddia etmək doğru deyil.

***"Cəmiyyət və Din"***


"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiz!» (Əl-Bəqərə surəsi, ayə 183)

«Kim inanaraq (mükafatını Allahdan umaraq) Ramazan ayında oruc tutarsa, keçmiş günahları bağışlanar»

«Oruc cəhənnəm oduna qarşı qalxandır» Hz. Məhəmməd (s)

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ

RAMAZAN TƏQVİMİ

﴿يا أيها الذين آمنوا كتب عليكم الصيام كما كتب على الذين من قبلكم لعلكم تتقون﴾ (البقرة ١٨٣)

من صام رمضان إيمانا و احتسابا غفر له ما تقدم من ذنبه...

...الصوم جنة من النار.

BAKI 2015

RAMAZAN AYINDA HƏR GÜN OXUNAN DUALAR!

Bismillahir Rəhmanir Rəhim

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru rəmazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi annəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

Allahummə ləkə sumtu və bikə amə ntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və saumə l-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

| HİCRİ TARİXİ 1436 | MİLADİ TARİXİ 2015 | SÜBH NAMAZI | GÜN ÇIXIR | ZÖHR NAMAZI | ƏSR NAMAZI | AXŞAM NAMAZI | İŞA NAMAZI |
|---|---|---|---|---|---|---|---|
| 1 Ramazan | 18 iyun | 04:39 | 06:10 | 13:45 | 18:25 | 21:29 | 23:17 |
| 2 Ramazan | 19 iyun | 04:39 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 3 Ramazan | 20 iyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 4 Ramazan | 21 iyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 5 Ramazan | 22 iyun | 04:40 | 06:11 | 13:46 | 18:26 | 21:31 | 23:19 |
| 6 Ramazan | 23 iyun | 04:40 | 06:11 | 13:46 | 18:27 | 21:31 | 23:19 |
| 7 Ramazan | 24 iyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 8 Ramazan | 25 iyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 9 Ramazan | 26 iyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 10 Ramazan | 27 iyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 11 Ramazan | 28 iyun | 04:42 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 12 Ramazan | 29 iyun | 04:42 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 13 Ramazan | 30 iyun | 04:43 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 14 Ramazan | 01 iyul | 04:43 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 15 Ramazan | 02 iyul | 04:44 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 16 Ramazan | 03 iyul | 04:45 | 06:15 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 17 Ramazan | 04 iyul | 04:45 | 06:15 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 18 Ramazan | 05 iyul | 04:46 | 06:16 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 19 Ramazan | 06 iyul | 04:47 | 06:16 | 13:49 | 18:28 | 21:30 | 23:17 |
| 20 Ramazan | 07 iyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:16 |
| 21 Ramazan | 08 iyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:15 |
| 22 Ramazan | 09 iyul | 04:49 | 06:18 | 13:50 | 18:28 | 21:30 | 23:15 |
| 23 Ramazan | 10 iyul | 04:50 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:14 |
| 24 Ramazan | 11 iyul | 04:51 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:13 |
| 25 Ramazan | 12 iyul | 04:52 | 06:20 | 13:50 | 18:28 | 21:28 | 23:12 |
| 26 Ramazan | 13 iyul | 04:53 | 06:21 | 13:50 | 18:28 | 21:28 | 23:11 |
| 27 Ramazan | 14 iyul | 04:54 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:10 |
| 28 Ramazan | 15 iyul | 04:55 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:09 |
| 29 Ramazan | 16 iyul | 04:56 | 06:23 | 13:50 | 18:27 | 21:26 | 23:08 |
| 30 Ramazan | 17 iyul | 04:57 | 06:24 | 13:51 | 18:27 | 21:26 | 23:07 |

Şəvval ayının 1-i (18 iyul) Fitr bayramıdır!

OBAŞDANLIQ VAXTININ SON HƏDDİ SÜBH NAMAZINDAN 20 DƏQİQƏ ƏVVƏLDİR

Digər şəhərlər üçün Bakı vaxtına edilən əlavələr:

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ağdam | +11 | Daşkəsən | +15 | İmişli | +7 | Mingəçevir | +11 | Şəki | +12 |
| Ağdaş | +10 | Şabran | +4 | Kəlbəcər | +15 | Marneuli (Tiflis) | +20 | Şəmkir | +15 |
| Ağsu | +5 | Şirvan | +4 | Kürdəmir | +6 | Naxçıvan | +18 | Şərur | +18 |
| Ağcabədi | +10 | Füzuli | +11 | Qax | +11 | Neftçala | +3 | Şuşa | +13 |
| Ağstafa | +18 | Göyçay | +8 | Qazax | +19 | Oğuz | +11 | Tərtər | +12 |
| Astara | +4 | Gəncə | +14 | Qəbələ | +8 | Ordubad | +16 | Tovuz | +16 |
| Babək | +18 | Gədəbəy | +16 | Quba | +5 | Saatlı | +6 | Yardımlı | +8 |
| Balakən | +5 | Goranboy | +12 | Qusar | +4 | Sabirabad | +6 | Yevlax | +11 |
| Beyləqan | +10 | Hacıqabul | +4 | Laçın | +14 | Salyan | +4 | Ucar | +8 |
| Bərdə | +11 | Horadiz | +10 | Lənkəran | +5 | Siyəzən | +3 | Zaqatala | +15 |
| Cəlilabad | +6 | Göygöl | +14 | Lerik | +7 | Sumqayıt | +1 | Zəngilan | +13 |
| Cəbrayıl | +12 | Xaçmaz | +4 | Masallı | +5 | Şamaxı | +6 | Zərdab | +9 |
| Culfa | +18 | İsmayıllı | +6 | Mərəzə | +3 | Şahbuz | +18 | | |



Daha ətraflı məlumatlarla www.qafqazislam.com saytında tanış ola bilərsiniz

# Avropa Parlamentində Azərbaycandakı dünyəviliklə bağlı hesabatın təqdimatı olub



Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Avropa Parlamentində "Azərbaycandakı dünyəvilik və regionda dini radikallaşma təhlükəsi" layihəsi çərçivəsində hazırlanan hesabatın təqdimat mərasimi keçirilib.

Tədbirdə Avropa Parlamentinin üzvləri Culi Vord, Tüne Kelam, Boris Zala və Qiorqiy Hölvenyi, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, Avropa Komissiyasının təmsilçiləri Marqit Palm, Aleksandra Kulmer, Malte Siman, təhlükəsizlik və xüsusi xidmət orqanlarının rəsmiləri, QHT və media nümayəndələri, tədqiqatçılar və digər şəxslər iştirak ediblər.

Hesabatda dünyəvilik prinsipinə söykənən Azərbaycanın müxtəlif dini icmaların bərabər yaşamasına şərait yaratdığı bildirilir. Qeyd edilir ki, mümkün dini radikallaşma təhlükəsinin qarşısının alınması üçün Azərbaycan dövləti daim hüquqi islahatlar həyata keçirir.

Hesabatda vurğulanır ki, mürəkkəb geosiyasi regionda yerləşən ölkə kimi Azərbaycan üçün dini radikallaşma təhlükəsi həmişə mövcuddur. Bunun əsas səbəbi bir sıra regional güclərin Azərbaycandakı multikultural mühiti, stabilliyi pozmaq məqsədilə "insan hüquqlarının müdafiəsi" adı altında müəyyən qrupları dəstəkləməyə çalışmasıdır.

Tədbirin sonunda hesabat ətrafında fikir mübadiləsi aparılıb, ekspertlər iştirakçıları maraqlandıran suallara cavab veriblər.

## Pan Gi Mun Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasından narahatdır

BMT-nin baş katibi Pan Gi Mun Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasının plenar iclasında çıxışından sonra parlamentarilərin suallarını cavablandırıb.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva baş katibə sualında əvvəlcə Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən zəbt olunduğunu, BMT Təhlükəsizlik Şurasının bu məsələ ilə əlaqədar dörd qətnamə qəbul etməsinə baxmayaraq işğalın hələ də davam etdiyini xatırladıb. O, rəsmi Yerevanın bu qətnamələri yerinə yetirməsi üçün BMT-nin hansı tədbirlər görə biləcəyini soruşub.

BMT-nin baş katibi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmamasından narahatlığını bildirib. O, münaqişənin yalnız sülh yolu ilə həllinin tərəfdarı olduğunu söyləyib. Baş katib cəbhə xəttində atəşkəsin mütəmadi olaraq pozulmasının, hər iki tərəfdən insan itkilərinin baş verməsinin onu narahat etdiyini deyib. O, hər hansı hərbi qarşıdurmanın iki ölkə və ümumilikdə bütün region üçün ağır nəticələrə gətirib çıxaracağını qeyd edib.

Pan Gi Mun deyib: "Bu münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur. Burada əsas ideya tərəflər arasında dialoqun aparılması və davamlı həllin əldə olunması üçün səylərin davam etdirilməsidir".



## Dini qurumların dövlət reyestr məlumatı

**Masallı rayonu Sığdaş kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 25 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 185**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Əsab Vahab oğlu, Qurbanov Baba Məmməd oğlu, Şahmarov Talıb Bədir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Kişiyev Ağakişi Rəzi oğlu, Əliyev Şükür Leysan oğlu, Məmmədov Mutalib Nəriman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Qurbanov Əsab Vahab oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Cəfərov Hümmət Hacıəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyun 2015-ci il**

---

**Qax rayonu Ləkit kəndi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi:30 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 500**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov Hacı Yəhya oğlu, Maqsudov Əşrəf Şərif oğlu, Abakarov Cahangir Güləhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əliyev Rüstəm Mehdi oğlu, Əsgərov Yahya Hacıməhəmməd oğlu, Aslanov Qiyas Yusif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Əsgərov Hacı Yəhya oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əliyev Rüstəm Mehdi oğlu oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyun 2015-ci il**

---

**Samux rayonu Samux şəhəri müsəlmanlarının dini icması**
**Qeydiyyat tarixi:30 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 498**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Tağı Həşim oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məmmədov İsa Sirac oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyun 2015-ci il**

**Hacıqabul rayonu Talış kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 72**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəhimov Nəcəf Cəfər oğludini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Muxtarov Seyidzadə Mirilyas oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmiş.

**Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyun 2015-ci il**

**Masallı rayonu I Yeddioymaq kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 26 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 384**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Zakir Səhər oğlu, İsgəndərov Məmməd Başir oğlu, Ələkbərov Əlixas Əmiş oğlu, Əliyev İmran Hüseyn oğlu, Qasımov Əziz Qasım oğlu, Zeynalov Vəli Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əkbərov Arif Səfər oğlu, Sadıqov Xamməd Məmməd oğlu, Qasımov Rəzzaq Əzim oğlu, Əzizov Rəhim Məhərrəm oğlu, İbrahimov Məhərrəm Mazan oğlu, Yağubov Əlisgəndər Əhməd oğlu, Hüseynov Ümüdəli Ələkbər oğludini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Quliyev Zakir Səhər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əhədov Qurbanqulu Qurbanəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 19 iyun 2015-ci il**

## ELANLAR

Quba rayonu Xucbala kənd dini icmasının (388 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 02.06.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

---

Zərdab rayonu Məlikli kənd məscidi dini icmasının (263 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.06.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

---

Ağdaş rayonu Qulbəndə kənd "Cümə" məscidi dini icmasının (39 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 01.06.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

---

Zaqatala rayonu Axaxdərə kənd məscidi dini icmasının (406 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

# Cəmiyyət və Din

№ 06 (287) / İYUN 2015-ci il


## "Bakı 2015"-ə həsr edilən qızıl "iPhone"



"iPhone" bazasında lüks klass smartfon istehsalçısı olan zərgərlik brendi "Caviar" Bakıda təşkil olunan ilk Avropa Oyunlarına həsr olunmuş eksklüziv "Caviar Olympia" smartfon kolleksiyasını buraxıb.

Telefonun qızıl korpusunda Azərbaycanın ən tanınan simvolları olan od, su, simurq quşu, xalça və narı birləşdirən Oyunların loqotipi həkk olunub.

Şərq naxışı ilə incə həkk smartfonun nəfis və cəlbedici dizaynını tamamlayır.

Yeni "Caviar Olympia" modeli özündə dünyada ən yaxşı smartfonun yüksək texnologiyalarını və nəfis zərgər işini birləşdirir. Smartfon eksklüziv olaraq "Caviar"ın Bakıdakı butikində təqdim olunur.

## "Bakı 2015" şokolad tablosu "Ginnesin rekordlar kitabı"na düşə bilər




Muzey Mərkəzində məşhur şokolad ustası Nikolay Popovun müəllif sərgisində yer alan və birinci Avropa Oyunlarına həsr edilən şokolad tablosu "Ginnesin rekordlar kitabı"na düşə bilər. "Bakı 2015" şokolad tablosunun çəkisi 215 kiloqramdır.

Avropa Oyunları ərəfəsində mayın 15-də açılışı keçirilən "Nikolya şokolad muzeyi" sərgisini indiyədək 15 min insan ziyarət edib. Bu barədə məlumat verən sərginin təşkilatçısı Andrey Leynin sözlərinə görə, təşkilatçılar dünyanın ən böyük şokolad tablosu haqqında "Ginnesin rekordlar kitabı"na müraciət ediblər.

Qeyd edək ki, Mədəniyyət və Turizm Nazirliyinin və Muzey Mərkəzinin təşkilatçılığı ilə keçirilən şokolad sərgisi iyunun 28-dək davam edəcək. Dünya turu çərçivəsində 40-dan artıq şəhərdə maraqla qarşılanan "Nikolya şokolad muzeyi"nin Bakı sərgisində 250-dən artıq şokolad məmulatı, şokolad və marsipan heykəllər, şokolad bagetlərlə çərçivəyə alınmış rəsmlər, miniatürlər və kompozisiyalar təqdim edilir.

## Bakı Avropanın 10 ən maraqlı məkanı siyahısında



Dünyanın görməli yerləri üzrə soraq kitabçaları buraxılışı üzrə ixtisaslaşan "Lonely planet" nəşriyyatı Avropanın ən maraqlı məkanlarının siyahısını təqdim edib. Siyahıda birinci yeri İslandiyanın Akyureyri şəhəri tutur. Eyya-fyordun qərb hissəsində yerləşən bu şəhər, reytinq müəlliflərinin fikrincə, ətraf ərazidəki balıqçı kəndlərinə səfər etmək, yaşıl çəmənliklərdə gəzişmək, palçıq lavalarına, şəlalələrə, dağ-xizək idmanı sahələrinə və balinaların qaynaşdığı körfəzlərə tamaşa etmək istəyənlər üçün çox maraqlı başlanğıc nöqtədir.

Almaniyanın Leypsiq şəhəri reytinq siyahısında ikincidir. Bu ilin yayında Leypsiqdə mərkəzi vağzalın 100 iliyinə və yazılı tarixdə şəhərin adının ilk dəfə çəkilməsinin 1000 illiyinə həsr edilmiş çoxsaylı tematik sərgilər və festivallar keçiriləcək.

Reytinq tərtibçiləri bu siyahıda üçüncü yeri Portuqaliyanın Azor adalarına veriblər. Keçmiş Sovet İttifaqı məkanındakı ölkələrdən bu reytinqə daxil edilmiş yeganə şəhər Azərbaycanın paytaxtı Bakıdır.

"Lonely planet" versiyasına görə, Avropanın ən maraqlı yerlərinin ilk onluğuna aşağıdakı məkanlar düşüb:

1. **Akyureyri, İslandiya**
2. **Leypsiq, Almaniya**
3. **Azor adaları, Portuqaliya**
4. **Malaqa, İspaniya**
5. **Belqrad, Serbiya**
6. **Pyemont, İtaliya**
7. **Bakı, Azərbaycan**
8. **Amsterdam, Niderland**
9. **Tromsö, Norveç**
10. **Portu, Portuqaliya**

## Yadigar söz

İlham Əliyev
*Azərbaycan Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

**Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 İyul | 04:43 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 2 İyul | 04:44 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 3 İyul | 04:45 | 06:15 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 4 İyul | 04:45 | 06:15 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 5 İyul | 04:46 | 06:16 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 6 İyul | 04:47 | 06:16 | 13:49 | 18:28 | 21:30 | 23:17 |
| 7 İyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:16 |
| 8 İyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:15 |
| 9 İyul | 04:49 | 06:18 | 13:50 | 18:28 | 21:30 | 23:15 |
| 10 İyul | 04:50 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:14 |
| 11 İyul | 04:51 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:13 |
| 12 İyul | 04:52 | 06:20 | 13:50 | 18:28 | 21:28 | 23:12 |
| 13 İyul | 04:53 | 06:21 | 13:50 | 18:28 | 21:28 | 23:11 |
| 14 İyul | 04:54 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:10 |
| 15 İyul | 04:55 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:09 |
| 16 İyul | 04:56 | 06:23 | 13:50 | 18:27 | 21:26 | 23:08 |
| 17 İyul | 04:57 | 06:24 | 13:51 | 18:27 | 21:26 | 23:07 |
| 18 İyul | 04:58 | 06:25 | 13:51 | 18:27 | 21:25 | 23:06 |
| 19 İyul | 04:59 | 06:25 | 13:51 | 18:27 | 21:24 | 23:05 |
| 20 İyul | 05:00 | 06:26 | 13:51 | 18:27 | 21:24 | 23:04 |
| 21 İyul | 05:02 | 06:27 | 13:51 | 18:26 | 21:23 | 23:03 |
| 22 İyul | 05:03 | 06:28 | 13:51 | 18:26 | 21:22 | 23:01 |
| 23 İyul | 05:04 | 06:29 | 13:51 | 18:26 | 21:21 | 23:00 |
| 24 İyul | 05:05 | 06:30 | 13:51 | 18:25 | 21:20 | 22:59 |
| 25 İyul | 05:06 | 06:30 | 13:51 | 18:25 | 21:19 | 22:57 |
| 26 İyul | 05:08 | 06:31 | 13:51 | 18:25 | 21:19 | 22:56 |
| 27 İyul | 05:09 | 06:32 | 13:51 | 18:24 | 21:18 | 22:55 |
| 28 İyul | 05:10 | 06:33 | 13:51 | 18:24 | 21:17 | 22:53 |
| 29 İyul | 05:11 | 06:34 | 13:51 | 18:24 | 21:16 | 22:52 |
| 30 İyul | 05:12 | 06:35 | 13:51 | 18:23 | 21:15 | 22:50 |
| 31 İyul | 05:14 | 06:36 | 13:51 | 18:23 | 21:14 | 22:49 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

* *Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi**
Masallı bölgəsi üzrə şöbənin müdiri
Miryəhya Bədirova oğlu
**Mirəli Bədirovun**
vəfatından kədərləndiyini bildirir
və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin**

## 26 İYUN Silahlı Qüvvələr Günüdür!




Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib),* Gennadi ZELMANOVİÇ.**

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**Qaynar xətt:** qaynar_xett@scwra.gov.az
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894